

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 226 (7151)

SƏS

7 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik

## Azərbaycan mədəniyyətinin himayədarı - Dahi Şəxsiyyət



3

# Şanlı tariximizin zəfər zirvəsi

2



*Azərbaycan dünya miqyasında o güclü və qüdrətli dövlətlərdəndir ki, daxili problemlərini, üzləşdiyi çətinlikləri özü həll edir. Bunun əyani sübutu olaraq 30 il işğal altında olmuş torpaqlarımızın 44 günlük Vətən müharibəsi ilə azad edilməsini göstərmək olar.*

# Ermənistanla bağlı İSTEHZALAR




14

## Yaşıl kapitalizm



11

## Rusiyalı ekspert: "Ermənistan Azərbaycandan üzr istəməli, ölkədən qovduğu qaçqınları geri qaytarmalıdır"



9

## Üzr istəyirəm!



10

## Şəhadətə qovuşanlar: vətən sevdalı Ceyhun Dünyamalıyev



12

## Valideynlik hüququndan məhrumetmə nə zaman baş verir?



5

# Şanlı tariximizin zəfər zirvəsi



*Azərbaycan dünya miqyasında o güclü və qüdrətli dövlətlərdəndir ki, daxili problemlərini, üzləşdiyi çətinlikləri özü həll edir. Bunun əyani sübutu olaraq 30 il işğal altında olmuş torpaqlarımızın 44 günlük Vətən müharibəsi ilə azad edilməsini göstərmək olar. BMT-nin Ermənistanın işğal edilmiş Azərbaycan torpaqlarını azad etməsi barədə 4 qətnaməsi olduğu halda qəsbkar dövlət qətnamələri icra etməkdən imtina etmişdir. Eyni zamanda, digər nüfuzlu beynəlxalq təşkilatlarda Ermənistanın Azərbaycan torpaqlarını azad etməsinə dair qərarlar qəbul etməyinə baxmayaraq xunta rejimi dünya birliyinə qarşı hörmətsizlik nümayiş etdirmişdir.*

Nəhayət, Azərbaycan hərəkətə keçərək özü öz gücünə ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Dünya hərb tarixində görünməyib ki, qısa müddətdə hansısa ordu geniş coğrafi ərazidə uğurlu hərbi əməliyyatlar keçirib, düşmənin hərbi silah-sursatını canlı qüvvəsini məhv edib, böyük zəfərə imza atsın. Azərbaycan ordusu, Ali Baş Komandan, Fateh Sərkərdə İlham Əliyevin rəhbərliyi ilə özlərini qüdrətli sərkərdə, məğlubedilməz ordu kimi təqdim edən ordunun bacarmadığını 44 günlük Vətən Müharibəsində reallaşdırdı.

### Ermənistan cəmi 44 gün müqavimət göstərə bildi



2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Ordusu Fateh Sərkərdə İlham Əliyevin rəhbərliyi ilə Qarabağın tacı sayılan Şuşa şəhəri daxili olmaqla Cəbrayıl, Fizuli, Qubadlı, Zəngilan və digər rayonlarını, o cümlədən Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini, Tərtər rayonunun Suqovuşan kəndini və ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi. Noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə Ermənistan məğlubiyyətini qəbul edib. Yəni Ermənistan Azərbaycan ordusunun surətli hücumu qarşısında duruş gətirməyəcəyini başa düşərək ağ bayraq qaldırıb. Noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında Bəyanat imzalanıb.Üçtərəfli Bəyanatın imzalanmasının ardından Azərbaycan Prezidenti, Fateh Sərkərdə İlham Əliyev qalib Azərbaycan xalqına müraciətində üçtərəfli Bəyanatın tarixi əhəmiyyəti olduğunu bildirib: “Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaq. Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm”.

Prezident İlham Əliyev çıxışlarının birində qeyd etmişdir ki, biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik: “Biz bölgəmizi faşist ideologiyasından tam xilas etməsək də, onun böyük hissəsini məhv etmişik. Buna görə bizim şanlı Qələbəmiz bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət daşıyır... Erməni faşizmi ən qəddar, ən təhlükəli, ən mənfur, ən çirkin ideologiyadır və biz bu ideologiyanı məhv etdik. Hesab edirəm ki, illər keçdikcə bizim bu tarixi xidmətlər dünya tərəfindən daha da dolğun şəkildə dərk ediləcək”.

Azərbaycan Prezidenti İlham Əliyev qələbənin əldə olunmasında Azərbaycan xalqının birliyinin mühüm rol oynadığını da vurğulayıb: “Bu günlərdə biz Azərbaycan xalqının birliyini gördük. Bütün bölgələrdən ordumuza dəstək gəldi....Bir daha gördük ki, ölkəmiz və xalqımız nə qədər gözəl ölkədir və gözəl xalqdır. Ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri, bütün dini konfessiyaların nümayəndələri cəsarət göstərərək, düşmənlə vuruşaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Bu, bizim böyük sərvətimizdir, böyük dəyərimizdir. Mən bunu dəfələrlə demişəm. Ermənistan bu xoşbəxtlikdən məhrumdur. Çünki monodövlətdir, orada ermənilərdən başqa heç kim yaşamır. Avrasiyada, bizim bölgədə başqa belə ölkə tapmaq mümkün deyil. Çünki heç kim orada yaşaya bilmir. Ya onları qovurlar, azərbaycanlılar kimi etnik təmizləməyə məruz qoyurlar, ya da ki, başqa millətin nümayəndəsi orada yaşaya bilmir, sıxışdırırlar, sıxışdırırlar, sıxışdırırlar. Amma bizim üstünlüyümüz bax, bundadır, çoxmillətli, çoxkonfessiyalı Azərbaycan bu müharibədə də özünü göstərdi, bütün xalqların nümayəndələri birlik göstərdilər, qəhrəmanlıq göstərdilər. Bir daha demək istəyirəm ki, bu müharibə bir çox məsələlərə bir daha aydınlıq gətirmişdir”.

### Qarabağın separatçılardan təmizlənməsi

Ermənistanın məğlubiyyətindən sonra hesab etmək olar ki, bölgəyə sülh gələcək, separatizmə, terrora son qoyulacaq. Lakin Ermənistandakı revanşist qüvvələr, o cümlədən 30 il ərzində Ermənistanın hakim rejiminə hərbi, siyasi, maliyyə yardımları göstərən xarici qüvvələr regionda sabitliyin yaranmasına imkan vermədilər. Məhz Ermənistana göstərilən siyasi hərbi, dəstək nəticəsində Azərbaycanın sərhəd bölgələrində ardıcıl erməni təxribatlar baş verdi. Baxmayaraq ki, 2021-ci ildə Azərbaycan və Ermənistanda sərhəd delimitasiyası üzrə işçi qruplar yaradılmışdır. İşçi qrupunun vəzifəsi bölgədə sabitliyə nail olunması və sərhədlərin delmitasiyasını həyata keçirmək idi. 2022-ci ilin sentyabrında erməni terror dəstələri Azərbaycanın sərhəd bölgəsinə xain hücum təşkil etdilər. Lakin Azərbaycan ordusu hücumun qarşısını alaraq yüzlərlə ermənin məhv etdi, çoxsaylı hərbi texnikanı sıradan çıxartdı. İrəvandakı hakim rejimin tapşırığı ilə Qarabağdakı erməni separatçıları ara-sıra ordumuza qarşı terror əməllərinə cəhdlər göstərirdilər. 2023-cü ilin martında Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri



Şuşa istiqamətində təxribatlar törətmiş, aprel və may ayında isə şərti dövlət sərhədi istiqamətində Azərbaycan Ordusunun mövqeləri atəşə tutulmuşdur. Qarabağdakı erməni separatçılarına silahı yerə qoymaq və təslim olunmaları üçün xəbərdarlıqların edilməsinə baxmayaraq nəticə olmadı. Arayik Artunyan, Vardanyan, Saakyan, Qukasyan və digər separatçılar ordumuza və mülki əhaliyə qarşı terror əməllərini həyat keçirirdilər. “Fərrux”, “Qisas” və bu kimi digər hərbi əməliyyatlar belə, separatçılar üçün dərs olmadı. Əksinə, xarici güclərə arxalanaraq humanitar yönlü “Laçın” yolundan hərbi yüklərin daşınmasını təşkil edir, mülki insanlarımıza atəş açırdılar. Təbii ki, separatizm uzun çəkə bilməzdi. Nəhayət, bütün bu qanunsuz əməllərin qarşısının alınması üçün 2023-cü il aprelin 23-də Azərbaycan Dövlət Sərhəd Xidməti 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında “Laçın” Nəzarət-Buraxılış Məntəqəsi yaradıldı. Bununla da separatçılara Ermənistandan silah sursat daşınmasının qarşısı alındı. Lakin Xankəndində ki terrorçu dəstə hərəkətə keçərək ordumuza qarşı açıq terror aktları həya keçirməyə cəhd göstərdi. Bu zaman Azərbaycan sərt cəza tədbirləri həyata keçirməyə məcbur oldu. 2023-cü il sentyabrın 19-da başlayan və 23 saat çəkən lokal antiterror tədbirləri ilə separatizm tamamilə məhv edildi. Separatçıların əsas başçıları isə hüquq-mühafizə orqanları tərəfindən həbs edilərək ordumuz istintaqa təhvil verildi. Onlara qarşı terrorizm, terrorçuluğu maliyyələşdirmə, qanunla nəzərdə tutulmayan silahlı birləşmə və qruplaşmalar yaratmaq, terrorizm məqsədilə təlimlər keçirmək ittihamları irəli sürülüb. Artıq Arayik Artunyan, Vardanyan, Saakyan, Qukasyan və digərləri məhkəməyə çıxmağa hazırlaşırlar. Bununla bağlı mətbuata açıqlamasında Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev bildirib ki, həmən şəxslərin istintaqı artıq yekunlaşıb və yaxın vaxtlarda materiallar məhkəməyə təqdim olunacaq:“Hazırda həm təqsirləndirilən şəxslər, həm də zərərçəkmişlər cinayət işinin materialları ilə tanış olurlar. Bilirsiniz ki, bu cinayət işində zərərçəkənlər çoxdur. Bütün istintaq-əməliyyat tədbirləri həyata keçirildikdən sonra iş beynəlxalq standartlara və Azərbaycan cinayət qanunvericiliyinə uyğun olaraq, mahiyyəti üzrə baxılması üçün məhkəməyə göndəriləcək”.

### İşğaldan azad edilən ərazilərin bərpasına 4 milyard manat ayrılacaq

Bu gün işğaldan azad edilən ərazilərimiz sakit və rahat nəfəs alır. Çünki 30 ildən sonra bölgəyə o yerlərin əsl sahibləri qayıdıb. Minlərlə keçmiş məcburi köçkün dövlətin hazırladığı və çox böyük uğurla həyata keçirdiyi “Böyük Qayıdış” Proqramının icrasına uyğun olaraq Şuşaya, Xocalıya, Laçına, Füzuliyə, Ağalı, Talış, Zabux və digər bərpa edilən yurd yerlərinə qayıdırlar. İşğaldan azad edilən ərazilərdə böyük quruculuq və abadlıq, bərpa işlərinin həyata keçirlməsi onu deməyə əsas verir ki, qısa müddətdə insanlar öz doğma yurdlarında məskunlaşacaqlar. Dövlət büdcəsindən bərpa və təmir işlərinə ayrılan maliyyə vəsaitlərinin də hər il artırılması da nəzərdə tutulan işlərin qısa müddət də başa çatacağını göstərir. 2025-ci ilin dövlət büdcəsinə nəzər yetirərkən məlum olur ki, büdcədən işğaldan azad edilən ərazilərin bərpa və quruculuq işlərinə ayrılan maliyyə vəsaitinin həcmi ötən il 2,5 milyard manat təşkil edirdisə, 2025-ci il də bu vəsaitin həcmi 4 milyard manat olacaq. Bununla bağlı Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin sədri Azər Əmiraslanov bildirib ki, Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işləri əsas prioritetlərdəndir: ”2025-ci ilin dövlət büdcəsi layihəsində Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işləri üçün 4 milyard manat vəsait nəzərdə tutulub. Bu vəsait orta müddətli dövrdə iqtisadi artıma, qeyri-neft iqtisadiyyatının inkişafına və məşğulluğa töhfə verəcək. Xüsusi olaraq vurğulamaq lazımdır ki, gələn ilin dövlət büdcəsi artım dinamikasına malik olan büdcədir”.

**İLHAM ƏLİYEV**



# Azərbaycan mədəniyyətinin himayədarı - Dahi Şəxsiyyət

***Azərbaycan dövlətinin möhkəmləndirilməsində, inkişafında, zənginləşdirilməsində, gənclərin fiziki və mənəvi tərbiyəsində müstəsna rolu olan Ulu Öndər Heydər Əliyev mədəniyyətin xalqın mənəvi dünyasının, milli mövcudluğunun əsas atributlarından biri olduğundan daim bu sahəni diqqətdə saxlayırdı. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra hər sahədə olduğu kimi, mədəniyyət sahəsinə də böyük diqqət ayırırdı.***

Mədəni həyatın demokratikləşdirilməsi, gənclərin, yeniyetmələrin, əmək qabilliyyətli insanların bu prosesdə yaxından iştirakını təmin etmək yönümündə addımlar atdı. Mədəni irsimizin qorunub saxlanmasında, inkişaf etdirilməsində, onun geniş təbliğində, dünya miqyasında şöhrət tapmasında Böyük Şəxsiyyət Heydər Əliyevin əvəzsiz xidmətləri oldu. Ədəbiyyat, teatr, kino, musiqi, rəssamlıq və bir çox başqa sahələrdəki inkişaf və tərəqqi Azərbaycan dövlətinin, onun rəhbəri Heydər Əliyevin diqqət və qayğısının nəticəsində reallaşdı. Ümummilli Lider Heydər Əliyevin milli-mənəvi dəyərlərimizə göstərdiyi qayğı müstəqil Azərbaycanın mənəvi həyatında əsaslı yüksəlişi ilə nəticələndi.

Qeyd edək ki, Azərbaycan tarixinin dönüş nöqtəsi 1969-cu ildən başlanır. Azərbaycan həyatında baş verən proseslər Heydər Əliyevin hakimiyyətdə olduğu bir zamanda öz həllini tapdı. Ümummilli Liderin milli mədəniyyətin, Azərbaycan elminin inkişafına diqqət ayırması respublikanın Avropa və dünya inteqrasiyasına daxil olması ilə nəticələndi. Sovet dövründə, eləcə də müstəqillik illərində elmi-mədəni potensialdan istifadə dövlətin siyasətinin başlıca amilinə çevrilmişdir. Dövrün tələblərini nəzərə alaraq, zəngin dəyərlərə malik olan xalqın intellekt potensialının üzə çıxarılması istiqamətində ardıcıl, məqsədyönlü fəaliyyət qısa bir zamanda öz nəticələrini vermiş oldu. Onun rəhbərliyi və təşəbbüsü ilə Azərbaycanda elm, mədəniyyət, təhsil ocaqları müasir standartlara cavab verən bir səviyyədə təmir və bərpa olundu. Ümummilli Liderin imzaladığı çoxsaylı sərəncamlar əsaslı dəyişikliklərlə nəticələndi. Respublikamızda kitabxanalar yaradıldı, muzeylər açıldı, teatr və musiqi ocaqları təmir edildi, eləcə də, ali təhsil ocaqlarına xüsusi diqqət yetirildi. Bütün bunların hər biri Azərbaycanın inkişafına, eləcə də gənc nəslin intellektual səviyyəsinin yüksəlməsinə təkan verdi. Eləcə də, regionlarda böyük işlər görüldü. Mövcud mədəniyyət müəssisələri təmir edildi, əhaliyə göstərilən mədəni xidmət yüksəldildi. Tarixi muzeyşünaslıq, diyarşünaslıq müəssisələri yaradıldı. Bu nöqteyi-nəzərdən Azərbaycan çox sürətlə inkişaf etməyə başladı. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı XX yüzilliyin son onilliyində yaşanılan böhran, xaos, gərginlik kimi anları aradan qaldırdı. Bu qayıdış Azərbaycanın hərtərəfli və dinamik inaişafını təmin etdi və müstəqilliyin, demokratiyanın, milli tərəqqinin təməlinin əsasını qoydu. 1993-cü ildən gələcəyə ümid yox dərəcəsində idisə, qısa bir zamanda təfəkkürlərdə, milli düşüncələrdə dönüş yarandı.

Qədim zəngin mənəvi mədəniyyətə malik xalqımız, məhz Ümummilli Lider Heydər Əliyevin mədəniyyət siyasəti nəticəsində öz varlığı, mənəvi irsi, keçmişi ilə fəxr edə bilər. Ulu Öndər Azərbaycan mədəniyyətinin və mənəviyyatının himayədarı idi. Həyatımızın bütün sahələrində iz salan Heydər Əliyevin elə qüdrətli və əzəmətli yadigarları var ki, zaman ötdükcə Dahi Şəxsiyyətin müqəddəs xatirəsi önündə ehtiramla baş əyir, əvəzsiz xidmətlərini heyrətlə, məhəbbətlə qarşılayırıq. Tarixi və mədəni hadisələrin məsafəsində Heydər Əliyevin xidmətləri daha parlaq, daha aydın görünməkdədir. Həyat təsdiqlədi ki, Azərbaycan mədəniyyətinin Heydər Əliyev qədər əsl himayədarı, böyük qayğıkeşi olmayıb.

### "İNCƏSƏNƏTİN, MƏDƏNİYYƏTİN, XÜSUSƏN DƏ, MAHNININ, MUSİQİNİN OYNADIĞI ROLU HEÇ BİR VASİTƏ OYNAYA BİLMƏZ"

Heydər Əliyev mədəniyyətə sadəcə qayğı göstərməklə kifayətlənmirdi. İstənilən musiqi əsəri, incəsənət xadiminin yaradıcılığı, teatr tamaşası haqqında elə dəqiq fikirlər söyləyirdi, təhlillər edirdi ki, sənətşünaslar belə həsəd aparırdılar. Heydər Əliyev hər bir sənət sahibi ilə məhz o sənətin mahir bilicisi kimi söhbət edirdi.

Heydər Əliyevin xidmətləri nəticəsində Azərbaycan mədəniyyəti, sözün həqiqi mənasında, yüksəliş dövrü keçdi. Heydər Əliyev mədəniyyətin ictimai həyatda rolunu, mahiyyətini həmişə dəyərləndirir, mədəniyyət xadimlərini, musiqiçiləri yeni yaradıcılıq axtarışlarına ruhlandırmaq üçün onların əməyini yüksək qiymətləndirirdi. Azərbaycan incəsənətinin inkişafına nail olmaq üçün Heydər Əliyev görkəmli bəstəkarların, rəssamların, kino və teatr xadimlərinin yubileylərinin dövlət səviyyəsində keçirilməsinə böyük əhəmiyyət verirdi. 1994-cü ildə Heydər Əliyevin S ərəncamı ilə böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyi təntənə ilə qeyd edildi. Böyük Azərbaycan şairinin qardaş Türkiyədə yubiley şənlikləri keçirildi.

Heydər Əliyevin musiqi sahəsindəki unudulmaz xidmətlərindən söz açarkən vurğulamaq lazımdır ki, Müdrik İnsan müasir musiqinin yeni janrlarının yaradılması ilə bərabər, milli musiqimizin də unudulmamasına çalışırdı. Xüsusilə də Üzeyir Hacıbəylinin, Müslüm Maqomayevin əsərlərinin gənc nəsil tərəfindən öyrənilməsinə, tamaşaya qoyulmasına çox diqqət göstərirdi. Ümummilli Liderin Üzeyir Hacıbəyli sənətinin mahiyyətini göstərərək deyirdi: "Əgər nəzərə alsaq ki, əsrimizin əvvəllərində xalqımızın əksəriyyəti savadsız idi, kitab oxuya bilmirdi və kitablar da az idi, kino, televiziya və başqa vasitələr yox idi, təsəvvür edin, Ü.Hacıbəyov öz operası vasitəsilə M.Füzulinin sözlərini, "Arşın mal alan", "O olmasın bu olsun" və başqa operettaları vasitəsilə istədiyi fikirləri insanlara çatdırmaqla xalqımızın mənəvi və mədəni inkişafında nə qədər böyük xidmətlər göstəribdir".

Bu gün Azərbaycanda onlarla sənət xadimlərinin, yazıçıların, şairlərin, musiqiçilərin, rəssamların, memarların ev muzeyləri fəaliyyət göstərir. Azərbaycanda ev muzeylərinin yaradılmasının təşəbbüskarı da məhz Heydər Əliyevdir.

Müdrik Şəxsiyyət həmişə milli mədəniyyətə, onun tarixi qaynaqlarına diqqətlə yanaşırdı. Bu səbəbdən də, Azərbaycan mədəniyyətinin son illərdəki tarixi inkişaf yolu, məhz Heydər Əliyevin himayəsi və nəzarəti altında davam etmişdir. Musiqi ayrı-ayrı xalqlara məxsus olsa da insanları birləşdirən ən yaxşı vasitədir. Bu mənada müxtəlif xalqlar arasında mədəni körpülərin salınmasının vacibliyini dərk edən Ümumilli Lider çıxışlarının birində belə demişdi: "Mahnı, musiqi qədər, incəsənət, mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də, mahnının, musiqinin oynadığı rolu heç bir vasitə oynaya bilməz".

### "ÖLÜLƏR" KİMİ ƏSƏRİ HEÇ KİM YARADA BİLMƏYİB"

Uşaqlıq və gənclik dövründən ədəbiyyatı və teatrı sevən Heydər Əliyev dünya ədəbiyyatında ən mükəmməl dram əsərləri ilə yanaşı durmağa layiq olan "Ölülər"-ə böyük sevgisi olmuşdur. "Ölülər"dəki komizm bir xalqın taleyi ilə bağlı olan dərin ictimai uyğunsuzluğun, ölü şüurla ağıl, mənəvi korluqla gözüaçıqlıq, ifrat xurafat və fanatizmlə sağlam düşüncə kimi ziddiyyət bu əsərin sevilməsində mühüm amildir. 1916-cı il aprelin 29-da ilk dəfə Bakıda göstərilən tamaşa həmin ilin iyununda Daşkənddə (özbək dilində), iyul ayında Mahaçqala şəhər teatrında, avqustda Vladiqafqazda, 1917-ci ildə Tiflisdə, Gəncədə, Naxçıvanda və s. şəhərlərdə tamaşaya qoyulub və böyük müvəffəqiyyət qazanıb. Hər zaman Azərbaycan mədəniyyətinə xüsusi diqqət və qayğı ilə yanaşan Ulu Öndər Heydər Əliyev də "Ölülər" əsərinə yüksək qiymət verib. "Əgər Cəlil Məmmədquluzadə kimi şəxsiyyət dünyaya gəlməsəydi, öz fəaliyyətini göstərməsəydi, əgər "Molla Nəsrəddin" jurnalı yatmış insanları qaranlıqdan çıxarmağa çalışmasaydı, əgər onun "Ölülər" əsəri insanların gözünü real dünyaya açmasaydı xalqımız bu qədər inkişaf edə bilməzdi" – deyə Heydər Əliyev bildirimişdi. Ulu Öndər özü müsahibələrində belə deyirdi: "Yuxarı siniflərdə oxuyarkən mən teatra böyük maraq göstərir, tez-tez yerli dram teatrının tamaşalarına gedib baxırdım... Beləliklə, teatrımız Mirzə Cəlilin "Ölülər" pyesini tamaşaya qoydu və mən də böyük məmnuniyyətlə bu tamaşaya bir neçə dəfə baxdım. "Ölülər" pyesi dərin fəlsəfi əsərdir. Öz fəlsəfi siqlətinə görə, o, Azərbaycan ədəbiyyatının dramatik əsərləri arasında ilk cərgədə durur. Eyni zamanda onu digər əsərlərdən fərqləndirən cəhət dərin milli ruhu, xəlqiliyidir... Mən Şekspirdən başlayaraq bütün dram əsərlərini bilirəm. Hesab edirəm ki, "Ölülər" kimi əsəri heç kim yarada bilməyib. Çünki bu cür mövzu tapmaq özü bir fəlsəfədir, dahilikdir..."

Heydər Əliyev hələ gənc yaşlarından teatra çox bağlı idi. Məktəb və tələbəlik illərində dram dərnəklərində səhnədə çıxışlar edən Heydər Əliyev teatrı çox sevirdi və o, Azərbaycan milli teatrını bizim milli sərvətimiz adlandırırdı. Müntəzəm olaraq teatr tamaşalarını izləyən Ümummilli Lider yaradıcı heyətlə görüşüb, öz tövsiyə və tapşırıqlarını verirdi.

### HEYDƏR ƏLİYEV ELƏ BİR ÖMRÜN MÜƏLLİFİDİR Kİ, BU ÖMRÜN ARXASINDA AZƏRBAYCAN, AZƏRBAYCANA XİDMƏT, AZƏRBAYCANIN SİVİLİZASİYASI DAYANIR

Xalqın zəngin mənəvi dünyasının öyrənilməsi problemi müstəqil Azərbaycan Respublikasının qurucusu, Ümummilli Lider Heydər Əliyevin elm və mədəniyyət quruculuğu siyasətinin tərkib hissəsi kimi daim diqqət mərkəzində olmuşdur. 1993-cü ildə sosial-mədəni həyatımızda əhəmiyyətli dönüşə səbəb olan Böyük Qayıdışdan sonra məhz "Folklor sarayı"nın yaradılması böyük və uzaqgörən şəxsiyyətin uğurlu siyasətinin nəticəsi kimi gerçəkləşdi. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü, diqqət və qayğısı ilə formalaşmış "Folklor Sarayı" Elmi-Mədəni Mərkəzinin yaradılması faktı Azərbaycan xalqının mənəvi ehtiyatlarının demokratik cəmiyyət və dövlət quruculuğu işinə səfərbər edilməsinin real təzahürüdür. Qeyd edək ki, keçmiş Sovetlər Birliyi dönəmində müttəfiq respublikaların Elmlər Akademiyaları sistemində Folklor və Etnoqrafiya, Folklor və Arxeologiya bölmə və institutları fəaliyyət göstərirdi. Amma Azərbaycanda belə bir institut mövcud deyildi. Folklor Elmi-mədəni Mərkəzinin yaranması bu boşluğun aradan qaldırılması üçün geniş imkanlar açdı. Zəngin folklor materialının toplanması, tərtibi, təsnifi, tədqiqi və nəşri, eləcə də elmi-nəzəri və praktiki işlərin reallaşması ardıcıl və ciddi fəaliyyət sferasına daxil oldu. Belə səmərəli fəaliyyətin nəticəsi çoxcildli regional antologiyaların, tematik elmi topluların, dissertasiya və monoqrafiyaların, tədqiq və tərcümələrin mükəmməl nümunələrinin nəşri üçün geniş imkanlar açdı. Milli, humanitar, ictimai və milli-ideoloji təmayülünün istər elmi-mədəni, istərsə də ideoloji baxımdan əsas ağırlıq mərkəzlərindən birinə çevrilən Folklor İnstitutu yaradıldı. Özünəqayıdış, özündən istifadə, özünüdərk yalnız folklora qayıdışla, ondan faydalanmaqla mümkündür. Çünki folklorun yaddaşında hazır kodlar mövcuddur, sadəcə olaraq informatik siqnalların göndərilməsi onların funksionallığını təmin etmiş olur. Bu mənada Folklor İnstitutu milli-mənəvi dəyərlərin qorunduğu məbəddir.

Heydər Əliyev elə bir ömrün müəllifi oldu ki, bu ömrün arxasında Azərbaycan, Azərbaycana xidmət, Azərbaycanın sivilizasiyası dayanır. Heydər Əliyev şəxsiyyət, siyasi xadim, xalqın dayağı, onun hərəkətverici qüvvəsi olaraq Azərbaycan tarixində əsrin lideri olduğunu təsdiqlədi.

İstər sovet məkanında rəhbər olduğu illərdə, istərsə də hakimiyyətə qayıdışından sonra Heydər Əliyev xalqın tarixinə əməlləri ilə iz saldı. Zaman ən böyük hakim olduğundan qısa məsafədən Azərbaycanın şanlı və silinməz tarixi yazıldı. Ölkə daxilində aparılan məqsədyönlü işlər, eləcə də, sərhədlərdən kənarda Azərbaycanın yürütdüyü siyasət müstəqil dövlətin təməlinin sütunlarını möhkəmlətdi və əbədiləşdirdi.

*Zümrüd BAYRAMOVA*

# Naxçıvanda Sənaye Parkı yaradılır

**_Azərbaycan Prezidenti İlham Əliyevin 21 illik prezidentliyi dövründə bütün sferalarda çevik islahatlar aparılıb, dövlət proqramları qəbul olunub. Düşünülmüş iqtisadi siyasət nəticəsində beynəlxalq qurumlarla səmərəli əlaqələr qurulub, vacib olan neft strategiyası davam etdirilib._**



*Dövlət başçısının Fərmanı ilə Sənaye Parkının fəaliyyətinin təşkilinə dövlət büdcəsindən 500,0 (beş yüz) min manat ayrılıb*



Son illər ölkəmizdə qeyri-neft sənayesinin inkişafının daha da sürətləndirilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı layihələr sırasında dövlət başçısının təşəbbüsü ilə sənaye zonalarının – sənaye parkları və məhəllələrinin yaradılması mühüm əhəmiyyət daşıyır.

”Naxçıvan Sənaye Parkının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 5 dekabr tarixində imzaladığı Fərmanı bu sahədə görülən işlərin daha bir göstəricisidir. Fərmana əsasən, Naxçıvan Muxtar Respublikasında Naxçıvan Sənaye Parkı yaradılacaqdır. Naxçıvan Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmətlər göstərilməsi məqsədilə istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir. Sənəddə qeyd olunur ki, Naxçıvan Sənaye Parkının fəaliyyətinin təşkili, onun idarə edilməsi və inkişafı ilə bağlı tədbirləri Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi həyata keçirəcəkdir. Naxçıvan Sənaye Parkının fəaliyyətinin təşkili, ərazisinin istifadəyə yararlı vəziyyətə gətirilməsi, xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması üçün layihələndirmə işlərinin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Agentliyə ilkin olaraq 500,0 (beş yüz) min manat ayrılacaqdır. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təklifləri nəzərə alınmaqla, Naxçıvan Sənaye Parkında istehsal və emal (təkrar emal) olunan sənaye məhsulları, habelə göstərilən xidmətlər üzrə prioritet istiqamətləri iki ay müddətində müəyyən etmək tapşırılıb. Eyni zamanda, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və kommunal xidmət (elektrik və istilik enerjisi, təbii qaz və su) qurumları ilə birlikdə Naxçıvan Sənaye Parkının ərazisində xarici və daxili infrastrukturun (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) yaradılması və sahibkarlıq fəaliyyətinin səmərəli təşkili üçün digər xidmətlər göstərilməsini təmin etmək məqsədilə Agentliyə kömək edəcəkdir. Naxçıvan Sənaye Parkının fəaliyyəti üçün Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Naxçıvan–Sədərək avtomobil yolunun cənubunda 310 (üç yüz on) hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsinin icarəyə vermək hüququ ilə Agentliyin daimi istifadəsinə verilməsini iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat verəcəkdir.

Bu gün ölkədə Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Ağdam və Cəbrayıl rayonunda ”Araz Vadisi İqtisadi Zonası” sənaye parkları, eləcə də sənaye məhəlləsi - Neftçala, Masallı, Hacıqabul, Sabirabad və Şərur sənaye məhəllələri yaradılıb. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə Sumqayıt Kimya Sənaye Parkı yaradılmışdır. Sumqayıt Kimya Sənaye Parkının ərazisində neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabət qabiliyyətli məhsulların istehsalı və emalı müəssisələrinin yaradılması nəzərdə tutulmuşdur. Sumqayıt Kimya Sənaye Parkının ərazisi 613 hektar təşkil edir.

Ölkəmizin və ümumilikdə regionun ən böyük sənaye zonası olan Sumqayıt Kimya Sənaye Parkında 41 müəssisəyə rezident statusu verilmişdir. Fəaliyyət göstərən müəssisələrin faktiki sayı isə 24-ə yüksəlmişdir.

Həmçinin, İqtisadi Zonaların İnkişafı Agentliyinin nəzdində müxtəlif istiqamətlər üzrə peşə təhsili verən Peşə Təhsil Mərkəzi fəaliyyət göstərir.

Sənaye parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədləri üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazidir. Ölkəmizdə sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 yanvar tarixli Fərmanına əsasən İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılmışdır. Agentliyin yaradılmasının əsas məqsədi sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlər hazırlamaq, həyata keçirilməsini təmin etmək, o cümlədən bu istiqamətdə göstərilən dövlət dəstəyi tədbirlərini həyata keçirtməkdir.

Sənayenin inkişafına yönəlmiş əhəmiyyətli mexanizmlərdən olan sənaye zonalarının - sənaye parkları və məhəllələrinin yaradılması istiqamətində həyata keçirilən tədbirlər davamlıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Gənclər Birliyinin iclası keçirilib






Dekabrın 6-da Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin iclası keçirilib.

İclasda YAP Gənclər Birliyinin 2024-cü il ərzində həyata keçirdiyi işlər və gələcək fəaliyyət istiqamətləri müzakirə edilib.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov 2024-cü ildə Birliyin fəaliyyətinin Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının tövsiyə və tapşırıqlarına uyğun təşkil edildiyini vurğulayıb. O, “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində “Yaşıl dünya üçün innovasiyalar” Rəqəmsal İdeya Müsabiqəsi və ümumrespublika “Nə? Harada? Nə zaman?” intellektual oyununun keçirildiyini bildirib. Bu tədbirlərin gənclərin innovasiyayönümlü potensialını üzə çıxarmaq, həmrəylik ruhunu gücləndirmək və ekoloji maarifləndirməyə dəstək vermək məqsədi daşıdığı vurğulanıb.

İclasda ali təhsil müəssisələrində fəaliyyət göstərən “YENİ Klub”ların əhatə dairəsinin genişləndirilməsi və fəaliyyətlərinin inkişaf etdirilməsi üçün təkliflər irəli sürülüb, eləcə də YAP Gənclər Birliyinin qarşıdakı 6 aylıq fəaliyyət planı müzakirə olunub. Bu çərçivədə 2025-ci ildə tələbələrin intellektual potensialını, liderlik bacarıqlarını inkişaf etdirmək, yaradıcı təşəbbüslərini artırmaq və onları innovativ fəaliyyətlərə təşviq etmək məqsədilə daha çox layihənin reallaşdırılması qərara alınıb.

# Valideynlik hüququndan məhrumetmə nə zaman baş verir?



### VƏKİL DETALLARI AÇIQLADI

“Valideynlik hüquqlarından məhrum etmə barədə işlərə uşaqların üstün mənafeyi əsas götürülməklə məhkəmələr tərəfindən baxılır. Ailə Məcəlləsinin 64-cü maddəsində valideynlik hüquqlarından məhrumetmənin əsasları konkret olaraq qeyd edilmişdir. Qanunvericiliyin tələblərinə əsasən valideynlər öz valideynlik vəzifələrini yerinə yetirmədikdə; alimenti qəsdən ödəmədikdə; heç bir üzürlü səbəb olmadan uşağı doğum evindən və yaxud hər hansı sosial xidmət müəssisələrindən götürməkdən imtina etdikdə; valideynlik hüquqlarından sui-istifadə etdikdə; uşaqlara qarşı məişət zorakılığı ilə bağlı hərəkətlər törətdikdə; xroniki alkoqol və narkomaniya xəstəsidirsə; uşaqların və ya ərinin (arvadının) sağlamlığına və ya həyatına qarşı qəsdən edilmiş cinayət törətdikdə; uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayət törətdikdə öz valideynlik hüquqlarından məhrum edilirlər”. Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü Xəyalə Məmmədova deyib.

Xəyalə Məmmədova sözlərinə belə davam edib: “Məhkəmə valideynlik hüququndan məhrumetmə ilə bağlı işlərə baxarkən valideynlik hüquqlarından məhrum edilmiş valideynlərdən (onlardan birindən) uşağa aliment tutulması məsələsini də həll edir. Qanunvericiliyin bu tələbi bir daha göstərir ki, valideynlik hüququndan məhrumetmə valideynləri uşaqların saxlanılmasını təmin etmə vəzifələrindən azad etmir.

Valideynlik hüquqlarından məhrum edilmiş valideynlər qanunla hansı hüquqlarından məhrum edilirlər? Məhrumetmə nəticəsində valideynin uşaqla olan bütün əlaqəsi kəsilirmi? Beləki, valideynlik hüququndan məhrum edilmiş valideynlər (onlardan biri) uşağa münasibətdə həmin uşaqla qohumluq faktına əsaslanan bütün hüquqlarını, o cümlədən uşaqdan təminat almaq, habelə uşaqlar üçün təyin edilmiş dövlət müavinəti almaq və imtiyazlardan istifadə etmək hüququnu itirirlər.

Qeyd etmək lazımdır ki, valideynlik hüquqlarından məhrum edilmiş valideynlərin (onlardan birinin) uşaqları hər bir halda



mənzilə xüsusi mülkiyyət hüququna və ya ondan istifadə hüququna, uşağın valideynlərlə və başqa qohumlarla qohumluq faktına əsaslanan əmlak hüquqlarına, o cümlədən vərəsəlik hüququna malikdir.

Valideynlərin hər ikisi valideynlik hüququndan məhrum edilərsə bu zaman uşağın aqibəti necə olacaq? Qanunvericiliyimizə əsasən, əgər uşağın digər valideynə verilməsi mümkün deyilsə və ya valideynlərin hər ikisi valideynlik hüquqlarından məhrum edilmişdirsə, uşaq dövlətin himayəsinə verilə bilər.

Valideynləri valideynlik hüququndan məhrum edildiyi üçün qayğıya ehtiyacı olan uşaqlar övladlığa da götürülə bilər. Belə ki, uşaq valideynlərinin (onlardan birinin) valideynlik hüquqlarından məhrum edilməsi haqqında məhkəmənin qətnaməsindən 6 ay keçdikdən sonra övladlığa götürülə bilər”.

**Ayşən Vəli**

# “2024-cü il Böyük Qayıdış proqramının həyata keçirilməsində uğurlu oldu”




“2024-cü il Böyük Qayıdış proqramının həyata keçirilməsində uğurlu oldu. Keçmiş məcburi köçkünlər dövlət hesabına tikilmiş mənzillərlə təmin edildilər və mərhələli şəkildə köçürülmə prosesi baş tutdu. Azərbaycan bu işləri heç bir xarici ölkənin və maliyyə-bank qurumunun yardımı olmadan özü təkbaşına həyata keçirir. Bu il Şuşa, Zəngilan, Cəbrayıl, Füzuli, Laçın və başqa yaşayış yerlərinə keçmiş məcburi köçkünlərin planlı şəkildə qaytarılması dövlətimizin bu istiqamətdə aydın proqramının olduğunu göstərir”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin sədr müavini Musa Qasımlı deyib.Deputat bildirib ki, Böyük Qayıdış proqramının icrasından danışarkən bir neçə məsələni xüsusilə vurğulamaqda fayda vardır: “Belə ki, bu proses üçün keçilən yola nəzarət etmək lazımdır. Azərbaycan dövləti Ermənistanın yeritdiyi siyasət nəticəsində tarixi torpaqlarından didərgin düşmüş və Azərbaycana qarşı hərbi təcavüzünün gedişində yurd yerlərini itirmiş təxminən bir milyon nəfər qaçqın və məcburi köçkünün problemini həll etdi. Dövlətimiz həmin şəxsləri dövlət vəsaiti hesabına yaşayış sahələri, işlə təmin etdi və sosial problemləri həll olundu, övladlarının təhsil haqqı ödəndi. Bundan sonra Azərbaycan dövləti təkbaşına müharibə apararaq Müzəffər Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında təcavüzkar Ermənistanı məğlub etdi və torpaqlarımız işğaldan azad olundu. Dərhal sonra azad olunmuş ərazilərin bərpasına başlanıldı, müasir şəhər, kənd və qəsəbələr salındı. Dövlət hər bir işi planlı şəkildə həyata keçirir. Buna görə də ən vacib vəzifələrdən biri işğaldan azad edilmiş ərazilərimizə keçmiş məcburi köçkünlərin qaytarılmasıdır və bu iş də uğurla davam etdirilir. Görülən işlərin cənab Prezident tərəfindən strategiyasının düzgün təmin edilməsi və həyata keçirilməsi vətəndaşların ürəyincədir”.

**Səbinə Hüseynli**

# “Təəssüflər olsun ki, insanlar, əsas da uşaqlar bu zəhəri içirlər”

“Qida mütəxəssisi olaraq orqanik qidaları tövsiyə edirəm. İnsan nə qədər orqanik qidalanarsa, bir o qədər sağlam olar. Bu, daxili orqanların fizioloji xüsusiyyətinə, insanın yaşamına, enerji mübadiləsinə, hormonların sürət mexanizminə təsir edir. Daxilə qəbul etdiyimiz hər hansı zərərsiz və zərərli qida insanın görünüşünə, dərisinin rənginə, sağlamlığına, ətraf mühitin infeksiyasından qorunmaq funksiyasına təsir göstərir”. Bu sözləri SİA-ya açıqlamasında diyetoloq Ləman Süleymanova deyib.

O bildirib ki, uşaqların hazır alınmış çöplü şirələrdən istifadəsi ilə bağlı ilk növbədə onu da izah etmək istəyirəm ki, ev şəraitində hazırlanan meyvə şirələrinin qəbulu tövsiyə olunur: ”Bu meyvə şirələri uşaq və yeniyetmələrin sağlamlığına, onların boy hormonlarının fəaliyyətinə pediatrlar, uşaq dietoloqları tərəfindən tövsiyə edilir. Nəinki uşaqlara, hətta böyüklər üçün meyvə şirəsi enerji mənbəyidir. Təbii meyvə şirəsi çox həssasdır. Meyvə şirəsini çəkərkən bir dəqiqə müddətində saxlanılır, bir dəqiqəni keçməmək şərtilə içilməlidir. Bir dəqiqə



saxlanılır ki, onun tərkibində müəyyən maddələr olur ki, onlar aktiv olur. Çəkilən kimi içəndə insana yüngül təsir edə bilər, təzyiqə meyilli insanda təzyiq qalxa bilər, şəkərə meyilli insanlarda şəkər qalxa bilər, yüngül ürəkbulanmaya gətirib çıxara bilər. Çünki meyvə çəkilən kimi içiləndə müəyyən maddələr aktivləşir, bu, insana təsir edə bilər. Çəkiləndən bir dəqiqəni uzatmamaq şərtilə qəbul edildikdə daha faydalı olur. Meyvə şirəsi çəkildikdən sonra 2-3 dəqiqə qalsa onun tərkibindəki aktiv maddələr passivləşir. Meyvə şirəsini 5 dəqiqədən sonra içsəniz, onun keyfiyyəti olmur. Əksinə mənfi təsir göstərir. Elə meyvə şirəsi olur ki, 5-6 dəqiqə qalandan sonra içildikdə ürəkbulanma, halsızlıq və zəhərlənmələrə belə səbəb ola bilər.

Çöplü sokların çoxu hazırlanmış meyvə şirələridir. Həmin meyvə şirələri ümumiyyətlə tövsiyə edilmir. Çünki onların daxilinə müxtəlif kimyəvi maddələr əlavə edilir. Onlar orqanizm tərəfindən zəhər kimi qəbul edilir”.

Onun sözlərinə görə, təəssüflər olsun ki, insanlar, əsas da uşaqlar bu zəhəri içirlər: ”Həmin meyvə şirələrinin heç bir önəmi yoxdur. Onlarda vitamindən əsər-əlamət yoxdur. Uşağı uzi müayinəsinə göndəririk, görürük ki, 11-12 yaşlı uşaqda öd qatılaşıb, qaraciyərdə piylənmə, mədəaltı vəzidə problem var. Hamısı bu sokların nəticəsidir. Bu içkilər qazlı içkilərdən də təhlükəlidir. Bəzən olur ki, stəkan kimi termos, fincanlar, çöplərdən istifadə olunur. Onların tərkibində kimyəvi maddələr var. Açan kimi zəhərlər aktivləşir, çöpü suya vurduqda ikitərəfli kimyəvi maddə olur. Yeməklə bərabər qəbul edildikdə, əgər vaxtı keçmiş qidadırsa, birbaşa zəhərlənməyə səbəb olar. Belə halla rastlaşdıqda, uşaqlarda halsızlıq, ürəkbulanma, ishal olarsa, mütləq həkimə müraciət etsinlər. Bir mütəxəssis kimi çöplü şirələrdən istifadəni məsləhət görmürəm. Hazır satışda olan heç bir meyvə şirəsi enerji, vitamin mənbəyi deyil, onlar yalnız işçilərin uydurduqları yalandır”.

**Söylü Ağazadə**

# Fikir, söz və məlumat azadığının, plüralizmin inkişaf etdirilməsinə önəm verilir




***Hər bir cəmiyyətin formalaşmasında müstəsna rolu olan fikir, söz və məlumat azadlığının, eləcə də plüralizmin inkişaf etdirilməsinə önəm verilməsi heç də təsadüfi deyil. Çünki məhz fikir, söz və məlumat azadlığı, plüralizm sivil cəmiyyətin atributu hesab olunur. Məhz bu baxımdan da fikir, söz və məlumat azadlığı, plüralizm cəmiyyətdə demokratik mexanizmlərin mövcudluğunun göstəricisi sayılır. Fikir, söz və məlumat azadlığının, plüralizmin ölkəmizdə inkişaf etməsi nəzərə alınaraq, Azərbaycan da məhz bütün dünyada demokratik mexanizmlərin mövcud olduğu ölkə olaraq tanınır.***

Doğrudur, Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdiyi zaman ölkəmizə rəhbərlik edənlərin səriştəsizliyi, xüsusən də AXC-Musavat hakimiyyətinin yaratdığı xaos, qarışıqlıq, hərc-mərclik fonunda fikir, söz və məlumat azadığından, plüralizmdən söhbət belə gedə bilməzdi. Həmin dövrdə ölkəyə rəhbərlik edənlər demokratiyadan, azadlıqdan dəm vursalar da ölkədə bunun əksi müşahidə edilirdi. Məhz müstəqilliyimizin bərpasının ilk illərində insanların hüquq və azadlıqları, demokratik mexanizmlər haqqında ancaq quru söz-söhbət gedirdi. Əslində, məhz o dövrdə demokratik mexanizmlərin mövcudluğunu iddia edənlər özləri heç bir azadlıq formasına, xüsusən də fikir, söz və məlumat azadlığına, plüralizmin inkişaf etməsinə qətiyyən imkan və şərait yaratmaq belə istəmirdilər. Bir qrup səriştəsizlər vəziyyətdən istifadə edərək hakimiyyət kürsüsünü ələ keçirdikdən sonra ancaq onu qorumağa, əldən verməməyə çalışırdılar və buna görə də onları insan azadlıqları qətiyyən maraqlandırmırdı. Onların bəziləri də ölkənin parçalanmasına, yenidən bərpa olunan müstəqilliyin bir də itirilməsinə rəvac verirdilər. Hakimiyyət zəifliyi, yaxud hakimiyyətsizlik səbəbindən qarışıqlıq və qarşıdurmalar, hətta vətəndaş müharibəsi astanasında olan Azərbaycanda fikir, söz, məlumat azadlığı heç yada da düşmürdü.

Vətəndaş müharibəsi astanasında olan Azərbaycanda insan azadlıqlarının hesaba belə alınmadığı bir dönəmdə, ölkəmizin ən çətin, ən keşməkeşli bir dövründə xalqımız haqlı olaraq, özünün xilaskarı hesab etdiyi şəxsiyyəti, Ümummilli Lider Heydər Əliyevi məhz öləmizin rəhbəri olaraq görmək istədi.

*Vətəndaş müharibəsi astanasında olan Azərbaycanda insan azadlıqlarının hesaba belə alınmadığı bir dönəmdə, ölkəmizin ən çətin, ən keşməkeşli bir dövründə xalqımız haqlı olaraq, özünün xilaskarı hesab etdiyi şəxsiyyəti, Ümummilli Lider Heydər Əliyevi məhz ölkəmizin rəhbəri olaraq görmək istədi.*

Bəli, məhz xalqımızın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdı və həqiqətən də, sözün əsl mənasında elə ondan sonra da Azərbaycanda fikir, söz və məlumat azadlığı formalaşmağa, plüralizm inkişaf etməyə başladı. Ən çətin şəraitdə Ümummilli Liderimiz məhz xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdı və ilk növbədə ölkədə o zaman cərəyan edən bütün mənfi proseslərin, xoşagəlməz halların qarşısını aldı, hansıki bununla da insan hüquq və azadlıqlarının, demokratiyanın təmin olunması üçün əsaslı zəmin yaratdı. Çünki fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsinə dahi rəhbərimiz tərəfindən hər zaman böyük önəm verilib.



Bəli, Ulu Öndərin hakimiyyətə qayıdışı ilə əvvəlcə, məhz 12 noyabr 1995-ci ildə müstəqil ölkəmizin ilk demokratik Konstitusiyasının ümumxalq səsverməsi yolu ilə qəbul olunmasına nail olundu, hansıki bununla da insan hüquq və azadlıqlarının təmin olunması, eyni zamanda, ölkəmizdə fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi üçün yeni üfüqlər açıldı. Əvvəla həmin üfüqlərin açılması məhz Konstitusiyamızın qəbul olunması ilə əlaqədar idi, çünki hüquq və azadlıqların təmin olunması, eləcə də fikir, söz və məlumat azadlığının, plüralizmin inkişafı üçün hüquqi əsas ən vacib şərt sayılırdı. Digər tərəfdən də Ulu Öndərimiz hər zaman fikir, söz, məlumat azadlığına, plüralizmin inkişaf etdirilməsinə xüsusi önəm verirdi. Azad və müstəqil mətbuatın inkişafına, qəzet və jurnalların yeni cəmiyyətin xarakterinə uyğun fəaliyyət göstərməsinə şərait yaradan Ümummilli Liderimiz eyni zamanda artmaqda olan televiziya kanallarının maddi bazasının, yayım keyfiyyətinin yaxşılaşdırılmasına, onların peşəkar kadrlarla təmin olunmasına nail oldu. Bir sözlə, dahi rəhbərimiz fikir, söz və məlumat azadlığının təmin olunmasını dərhal reallaşdırdı. Xalqımızın xilaskarı bununla da kifayətlənmədi və ölkəmizdə eləcə də siyasi partiyaların fəaliyyətinə yüksək səviyyədə şərait yaratdı. Bir sözlə, plüralizmin inkişafını təmin etdi. Xüsusən də Ümummilli Liderimizin rəhbərliyi ilə məhz 1995 və 2000-ci illərdə Milli Məclisə keçirlən seçkilərdə bütün siyasi qüvvələrin təmsil olunmasına, demokratik seçkilərin keçirilməsinə, plüralizmin inkişafına qısa müddətdə nail olundu.

Hal-hazırda məhz dövlət başçımızın, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə fikir, söz, məlumat azadlığına, plüralizmin inkişafına xüsusi önəm verilir. Cəmiyyətimiz yaxşı başa düşür ki, söz və fikir azadlığı plüralizmin inkişafına zəmin deməkdir və ölkəmizdə məhz həmin azadlıqlar olduğu üçün plüralizm də özünün inkişafın inkişafını daim davam etdirir. Ölkəmizdə siyasi plüralizmin inkişafı göz önündədir və Azərbaycanda çox sayda partiyaların olması bunu təsdiq edən ən başlıca arqumentdir. Plüralizmin mühüm elementi olan çoxpartiyalılıq sisteminin inkişaf etməsi, möhkəmlənməsi özü də söz, fikir azadlığının mövcudluğunu təsdiq edir və bunu dünya ictimaiyyəti də çox yaxşı görür. Bütün dünya görür ki, Azərbaycanda çoxlu sayda partiya var və bu partiyalara nəinki manea yoxdur, hətta həmin partiyalara davamlı şəkildə dövlət dəstəyi də göstərilir. Heç kim üçün sirr deyil ki, Azərbaycanda siyasi partiyalar haqqında qanunvericilik də var və hətta həmin qanunvericilik mütəmadi şəkildə yenilənir. Milli Məclisdə "Siyasi partiyalar haqqında" qanun layihəsinin ictimai müzakirəsinin keçirilməsi də deyilənlərə daha bir fakt və dəlil hesab olunur. Xüsusən də həmin müzakirələrdə parlamentdə təmsil olunan və parlamentdən kənar siyasi partiyaların nümayəndələrinin belə iştirak etməsi, siyasi partiyaların maliyyələşdirilməsi ilə bağlı maddənin dəyişməsi, siyasi partiya anlayışı, partiyaların təsis edilməsi və digər məsələlərin qanunvericilikdə konkret şəkildə göstərilməsi ancaq demokratik cəmiyyət üçün xarakterik, xas olan plüralizmin ölkəmizdə olduğunu göstərir və onun inkişafda olduğunu da isbatlayır.

***İnam Hacıyev***

# "İctimai sağlamlıq və təhlükəsizlik: mənfi təsirlərdən özünü və ətrafını qoru!"

Dekabrın 6-da Lənkəran şəhərində "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC arasında imzalanmış Tədbirlər Planına uyğun olaraq "İctimai sağlamlıq və təhlükəsizlik: mənfi təsirlərdən özünü və ətrafını qoru!" mövzusunda tədbir təşkil olunub.





Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb. Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə YAP Lənkəran rayon təşkilatının sədri İqbal Əmənullayev, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini, ŞİH yanında Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın sədri Mikayıl Cəfərzadə, Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev və Səhiyyə Nazirliyinin Sumqayıt Şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov çıxış ediblər.




Çıxışlarda narkomaniya ilə mübarizədə maarifləndirmə işlərinin önəmi vurğulanıb. Yeniyetmə və gənclərin zərərli vərdişlərdən qorunması, sağlam həyat tərzinin təşviqi və təbliğat işlərinin gücləndirilməsinin vacibliyi qeyd edilib. Bildirilib ki, Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş "2019-2024-cü illər üçün Dövlət Proqramı" bu problemə qarşı sistemli və məqsədyönlü mübarizənin aparılması üçün müstəsna əhəmiyyət daşıyır.

Eyni zamanda, gənclərin bilik və bacarıqlarının artırılması, elmə, təhsilə və idmana marağının yüksəldilməsi onların zərərli vərdişlərdən uzaq qalmasında əsas amil kimi vurğulanıb. Müasir dövrdə gənclərin cəmiyyət həyatında fəal iştirakının dövlət gənclər siyasətinin əsas prioritetlərindən biri olduğu qeyd edilib.



İnteraktiv formada davam etdirilən tədbirdə iştirakçıların sualları cavablandırılıb. Tədbir iştirakçılarına narkomaniya ilə mübarizənin təşviqi məqsədilə Dövlət Komissiyasının İşçi qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər paylanılıb. Sonra YAP sıralarına yeni qoşulanlara üzvlük vəsiqələri təqdim edilib. Tədbirə Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekun vurulub.

# "Cəmiyyətimizi narahat edən məsələlərdən biri də erkən evliliklərdir"



MÜNASİBƏT

***"Bu gün cəmiyyətimizi narahat edən ailə məsələlərindən biri də məhz erkən evliliklərdir. Azərbaycan demokratik ölkə olduğuna görə ölkəmizdə azyaşlı uşaqları erkən evliliyə məcbur etmək heç bir halda normal qəbul edilə bilməz, birmənalı olaraq gender əsaslı zorakılığın ən bariz "nümunəsi" kimi dəyərləndirilməlidir". Bu sözləri SİA-ya açıqlamasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə məsələləri şöbəsinin müdir müavini Kamila Əliyeva deyib.***

O bildirib ki, belə halların qarşısının alınması istiqamətində dövlət tərəfindən mütəmadi olaraq tədbirlər görülür, qanunvericilikdə dəyişiklliklər edilir: "Əvvəllər AR Ailə Məcəlləsində qızlar üçün nikah yaşı 17, oğlanlar üçün isə 18 yaş göstərilirdi, sonradan AR Uşaq Hüquqları haqqında Qanuna əsasən qızların nikah yaşı oğlanlarla bərabələşdiriləxrək 18 yaşa dəyişdirilmişdir. AR Cinayyət Məcəllləsinin "Qadını nikaha məcbur etmə" maddəsinə əlavə olaraq nikah yaşına çatmayan qızları nikaha məcbur etməyə görə cərimə və ya dörd ilədək azadlıqdan məhrum etmə cəzası müəyyən edilmişdir.

Bu istiqamətdə görülən işlərin davamı olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 iyun 2020-ci il tarixli, 213 nömrəli Qərarı ilə "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumlar arasında nikahın mənfi



nəticələrinə dair maarifləndirmə Qaydası" təsdiq edilmişdir. Qaydada erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə sahəsində tədbirləri həyata keçirən dövlət qurumlarının siyahısı və onların öhdəliyinə düşən vəzifələr açıqlanır: Qaydanın icrası istiqamətində hər ilin yanvar ayında aidiyyəti qurumlar tərəfindən təqdim edilən məlumatlara əsasən Komitə tərəfindən ölkə üzrə hesabat hazırlanır, Komitənin rəsmi saytında dərc edilir.

2020-ci ildə "Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiya" və "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı" təsdiq edilmişdir. Strategiya Azərbaycan Respublikasında uşaq hüquqları sahəsində mövcud hüquqi bazanı təkmilləşdirməklə, uşaqların müdafiəsinin işlək mexanizminin yaradılması, erkən uşaqlıq dövründə onların inkişafına dövlət dəstəyin göstərilməsi, çətin həyat şəraitində olan uşaqların müdafiəsi, onların sağlam mühitdə böyüməsi və tərbiyəsi, uşaqlarla bağlı həyata keçirilən tədbirlərin monitorinqi və qiymətləndirilməsi sisteminin inkişafı kimi əsas istiqamətləri və bütövlükdə Azərbaycan Respublikasında uşaq siyasətinin əsas hədəflərini müəyyən edir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, eləcə də Komitənin nəzdində fəaliyyət göstərən 11 Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən yeniyetmə və gənclərin, onların valideynlərin erkən nikahın mənfi nəticələrinə dair məlumatlılıq səviyyəsinin artırılmasına xüsusi önəm verilir, mütəmadi olaraq bu istiqamətdə maarifləndirici görüşlər təşkil olunur. Bununla yanaşı təhsildən yayınan və sosial təhlükəli vəziyyətdə olan uşaqların ailələri ilə fərdi profilaktik işlər aparılır, erkən evlilik faktlarının aşkarlanması, qarşısının alınması istiqamətində qabaqlayıcı tədbirlər görülür. Belə hallarla üzləşən şəxslər üçün, ümumiyyətlə gender əsaslı zorakılıqla üzləşən şəxslər üçün Dövlət Komitəsi yanında 860 qaynar xətt (860) yaradılıb, Dövlət Komitəsinin dəstəyi ilə uşaq hüquqlarının müdafiəsi üçün 116111 qaynar xətti yaradılıb.

Dövlət tərəfindən bütün bu aparılan işlərin nəticəsi kimi 2012-ci ildən erkən evliliklərin sayında azalmanın müşahidə olunmasına baxmayaraq belə halların baş verməsi hələ də ciddi narahatlıq doğurur. Dövlət Statistika Komitəsinin açıqladığı məlumatlara əsasən 18 yaşadək olan analar tərəfindən doğulan uşaqların sayı 2021-ci ildə -1650 olub, 2022-ci ildə -2011 (2021-ci ilnən müqayisədə 361 uşaq çox dünyaya gəlib), 2023-cü ildə isə bu say 15% azalaraq 1742 olub. Nikah yaşının 1 il azaldılması ilə bağlı yerli icra hakimiyyətləri tərəfindən 2022-ci ildə 276 nəfər, 2023-cü ildə isə 241 nəfər yetkinlik yaşına çatmayan şəxsə icazə verilib".

Onun sözlərinə görə, bu baxımdan, erkən evliliklərin mənfi nəticələrini, eləcə də belə halların baş verməsinin qarşısının alınması istiqamətində ciddi addımların atılması zərurəti yaranmışdır: "28 iyun 2024-cü il tarixində qanunvericiliyə bir sıra dəyişikliklərin edilməsi ilə bağlı Qanun qəbul edilib. Qanuna əsasən Ailə Məcəlləsində nikah yaşının 1 il azaldılması ilə bağlı istisna halları ləğv edilib. AR Cinayət Məcəlləsində on altı yaşına çatmayan şəxsin erkən evliliyinin təşkilinə görə, eləcə də AR İnzibati Xətalar Məcəlləsində on altı yaşına çatmayan şəxs barəsində evliliyə dair sövdələşməyə daxil olmaya görə, yetkinlik yaşına çatmayan şəxslərin erkən evliliyi ilə bağlı mərasimlərin keçirilməsinə görə, yetkinlik yaşına çatmayan şəxslər barəsində dini kəbinkəsmə mərasimlərin keçirilməsinə görə cəza tədbirlərin görülməsi ilə bağlı dəyişikliklər edilib. Qanun 2025-ci ilin iyulun1-dən qüvvəyə minir.

Lakin belə halların qarşısının alınması istiqamətində yalnız dövlət tərəfindən tədbirlərin görülməsi kifayət deyil. Dövlət Komitəsi olaraq bizim tövsiyəmiz odur ki, ictimai fəal insanlar, qeyri-hökumət təşkilatlarının nümayəndələri, din xadimləri, ümumilikdə bütün cəmiyyət üzvləri problemlə mübarizədə fəal olsunlar, ictimai müzakirələr zamanı belə hallara haqq qazandırmasınlar, bu kimi halların qarşısının alınmasında yaxından iştirak edərək öz dəstəklərini göstərsinlər".

***Söylü Ağazadə***

# Həyəcan təbili: selektiv abortlar qadağan olunmalıdır

*Avropaya doğru çıxdığımız yolçuluqda arxada qoyub üzərindən irəliyə addımladığımız məsələlərdən biri də dünyaya gələn uşaqların hər il sayının azalmasıdır. Bu say o qədər azalıb ki, indi üçuşaqlı ailələr barmaqla göstəriləcək qədər qalıb. Müasir ailələrimizdə iki uşaq, son vaxtlar isə bir uşaqla kifayətlənmək bizim hələ bir neçə illər öncəki avropalaşmaq meyilimizin bəhrəsidir. Hansı ki, artıq budur, meyvəsini dəririk.*



Tanıdığım yaşlı bir qadın var, mama-tibb bacısıdır. O deyir ki, ailədə iki uşaqla kifayətlənmək tamamilə səhv fikirdir. Həmin ailə fikirləşməsin ki, biz dünyaya insan bəxş etdik. İki uşaqdan biri ata, biri anadır. Əgər ailədə üçüncü uşaq varsa, bu, artım sayıla bilər.

Nə qədər doğru söylənmiş fikirdir. Dəfələrlə təsadüf etmişik ki, ailələrdə iki övladdan biri ya xəstəlikdən, ya da hansısa qəza nəticəsində dünyasını dəyişir, o biri uşaq tək qalır, bundan böyük travma alır. Bu, həm də uşaqların psixoloji durumuna ciddi təsir göstərir. Qardaş və ya bacısını itirən uşaq əgər ailədə üçüncü uşaq olarsa, onunla təsəlli tapar, əks təqdirdə onun vəziyyətini düşünmək heç də çətin deyil. Belə uşaqlar üçün gələcək həyat daha dözülməz olur. Çünki onlar tamamilə tək qalırlar.

## Qadınlar günahkardır...

İki övladından birinin oğlan olması ilə kişi artıq ailə üzvlərinin daha da artmasında maraqlı olmur. Çünki onun artıq oğlu var. Hər bir kişinin arzusunda olduğu, doğulmasını səbrsizliklə gözlədiyi oğlu. Elə ki, birinci və ya ikinci uşaq oğlan oldu, deməli, kişilər arzularına çatdılar. Onlar daha ailə artımı barədə düşünmürlər.

Məsələnin bu tərəfi üçün məhz qadınlar günahkardır. Çünki qadın həm də anadır. Övladının bu gününü və gələcəyini düşünmək kişilərdən çox qadınlara bəxş olunan hissdir. Bu səbəbdən də qadınlar iki uşaqla kifayətlənməməlidir. Lakin onlar işlərinin yüngül olması, karyera dalınca gedə bilmələri, daha çox əziyyət çəkməmələri üçün USM-lərin köməkliyi ilə ailə planlaşdırması tərtib edərək bu kimi problemlərin yaranmasına rəvac verirlər. O problemlər ki, əhali sayının da, ailədə uşaq sayının da artımına və bunun yaratdığı problemlərə ciddi şəkildə təsir göstərir. Əslində isə dünyaya uşaq gətirmək, onun qayğısına qalmaq, gözəl tərbiyə verib böyütmək valideynlərin, xüsusilə də anaların üzərinə düşən mühüm vəzifədir. Digər işlər, karyeralar isə bundan sonra düşünülməlidir.

Axı biz ailə dəyərlərimizə bu cür münasibət bəsləyə-bəsləyə onu cılızlaşdırırıq. Ailəyə iki övlad bəxş etməklə ölkəmizin əhali sayına, inkişafına zərbə vurmuş oluruq. Mənsub olduğumuz kökün, nəslin getdikcə azalmasına, yoxa çıxmasına şərait yaradırıq...

## Bacısız qardaşlar, qardaşsız bacılar və ya əmi-dayısız, bibi-xalasız uşaqlar

Beləliklə, cəmiyyətimizə yeni ailə modelləri təqdim edirik: azuşaqlı, azüzvlü, qohumsuz ailə modelləri. Hazırda yüzlərlə ailə var ki, onlar bir uşağa sahibdirlər. İkincisi barədə isə əsla düşünmürlər. Bu isə yüzlərlə qardaşsız bacı, bacısız qardaş deməkdir. Tək böyüyən, ata-ana dünyasını dəyişəndən sonra tamamilə təkləşən uşaqlar deməkdir. Gələcəkdə övladının bu təkliklə necə yaşayacağını valideynlər bu gün düşünürlərmi? Düşünsələr, yəqin ki, övladları üçün məlum gələcəyi verməzlər.

Və yaxud da ailə iki uşaqla kifayətlənirsə, əmi-dayısız, xala-bibisiz bir cəmiyyət formalaşdırırıq. Son onilliklərin ailə modeli olan ikiuşaqlı ailələrdə bir qız, bir oğlan doğulur. Minlərlə belə ailələr var. USM-lərin köməyi ilə bir qızı övladı olan ailələr ikinci uşağı oğlan istəyir və buna selektiv abortların köməyi ilə nail olurlar. Beləliklə də onların həm qızı, həm oğlu olur. Bu uşaqlar isə gələcəkdə yalnız dayı və bibi olurlar. Əmi və xala qohumluğu isə artıq sona çatmaqdadır. Biz özümüz öz əllərimizlə əmisiz və xalasız cəmiyyət qururuq. Hansı ki, bizdə xalaya ikinci ana, əmiyə ikinci ata deyirlər. Yeri gələndə-həyatın sərt üzü ilə qarşılaşanda xala bacısının övladlarına analıq, əmi isə qardaşının övladlarına atalıq edə bilir.









Yalnız iki uşaqla-həm də onlardan birinin qız, digərinin isə oğlan olması ilə kifayətlənməklə bu kimi “yeniliklərə” rəvac veririk.

## Məsələnin əsas tərəfi də var...

Bəli, bu məsələnin əsas tərəfi haqqında danışmamaq olmur. Ailələrdə iki uşağın olduğu məlumdur. Bəs sual edən varmı ki, nə üçün bir qız, bir oğlan? Belə ailələrin əksəriyyətində ilk uşaq qızdır. Məhz qız olduğu üçün də valideynlər oğlan axtarışına çıxır. Nə etməli ki, ikinci uşaq hökmən oğlan olmalıdır. Beləliklə, yeni bir proses başlayır. Analar növbəti hamiləlikləri o vaxta qədər pozur ki, USM ona oğlun olacaq deyir. Beləliklə də birinci uşaqla ikinci arasında 2-3, bəzən də bundan da çox qız uşağını qurban veririk. Onlar selektiv abortların qurbanına çevrilir.

Yox, əgər ailədə ilk uşaq oğlandırsa, müasir valideynlər bəlkə də bununla kifayətlənərlər. Lakin ata-analarının təkidi ilə, “bir uşaqla olmaz” tələbi, umu-küsüsü ilə bir neçə ildən sonra ikinci uşağın doğulmasını planlaşdırırlar. Bu dəfə isə fərq etməz, qız, ya oğlan olsun. Çünki istənilən əsas övlad-oğlan artıq onlarda var.

Beləliklə, bu qənaətə gəlmək olar ki, cəmiyyətimiz ciddi bir xəstəliyə düçar olub. Yaxşı həkimlər lazımdır ki, bu səhv psixoloji vəziyyətdən bizi çıxara bilsin. Ailənin, övladların dəyərini bizə anlada bilsin. Uşaqların çoxsaylı olmasının onların gələcəkdə bir-birinə dəstək, arxa-dayaq olmasını anlada bilsin.

Bizə yaxşı ağsaqqal və ağbirçəklər lazımdır ki, əvvəlki illərdən söhbət açsın. Çoxuşaqlı ailələrdən, çoxsaylı bacı-qardaşlardan danışsın. Belə ailələrdə yaşanan maraqlı anları, xoşbəxtliyi anlatsın. Toyziyafətlərdə əmi-dayı, bibi-xala uşaqlarının gəlinin, bəyin ətrafında yaratdığı xoş xatirələri xatırlatsın. Onların bir-birilərinə arxa-dayaq, dost-rəfiqə olmasından, bununla da bütövlükdə həyatlarının maraqlı keçməsindən söhbət açsın. Hansı ki, biz uşaqlarımızı bu xoşbəxtlikdən məhrum edənlərik.

Nə oldu bizlərə, nə üçün bu qədər dəyişdik? Nə üçün nənə-babalarımızın ardınca deyil, Avropanın ardınca getməyə üstünlük verdik? Nə üçün özümüzün neçə-neçə əmi-dayımız, xala-bibimiz ola-ola övladlarımızı bu qohumlardan məhrum edirik? Bu haqqı bizə kim verir? Avropamı? Axı əsrlərin o üzündən bəri onlarla bizim bütün dəyərlərimiz fərqli olub. Onlar ailə dəyərlərinə görə həmişə bizə köks ötürüblər. Bizi nümunə göstəriblər. Çoxuşaqlı ailələr onlar üçün bir möcüzə qaynağı olub. Biz nə edirik? Bir vaxtlar bizə oxşamağa çalışanlara indi biz oxşayırıq?..

## Nə qədər ki, selektiv abortlar var...

Son 3 ilə nəzər salsaq, 2021-ci ilin statistikasına əsasən, Azərbaycanda 100 qıza 115 oğlan düşüb. Əvvəl selektiv aborta görə siyahıda liderlik Çinə məxsus idi və Azərbaycan ikinci yerdə idi. İndi vəziyyət əksinədir. Belə ki, hazırda Çində bu göstərici 100-110,3 təşkil edir. Nəzərə almaq lazımdır ki, dünyaya gələn uşaqların cins nisbəti bioloji normaya uyğun olaraq 102-106-dır. Belə ki, heç bir xarici müdaxilə olmadığı təqdirdə doğulan hər 100 nəfər qız uşağına 102-106 oğlan uşağı düşür. 1990-cı illərin əvvəllərindən Azərbaycanda bu nisbətin pozulması müşahidə edilir.

2022-ci ildə Azərbaycanda 122846 körpə doğulub. Onlardan 64940 nəfəri oğlan, 57906 nəfəri isə qız uşaqlarıdır. Göründüyü kimi ötən ildə də son illərin hər birində olduğu kimi, oğlan uşaqları qızlardan çox doğulub.

2024-cü ilin yanvar-iyul ayları ərzində isə ümumilikdə 58 848 uşağın doğumu dövlət qeydiyyatına alınıb, bunlardan 31 306-sı oğlan, 27 542-i isə qız olub.

BMT-nin Əhali Fondunun hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam etsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12 000-15 000 nəfər çox olacaq. Ekspertlər bu fikirdədir ki, cəmiyyətdə kişilərin sayının bu artımla davam etməsi ölkənin acınacaqlı nəticələrlə üz-üzə qalması halına gətirib çıxara bilər. Bura Gender bərabərsizliyi, zorakılıq, erkən nikah, insan alveri və kriminal səviyyənin artması aiddir. Bu vəziyyətlə qarşılaşmaq istəmiriksə...

## Selektiv abortlar qadağan olunmalıdır

Selektiv abortlar insanlığa qarşı haqsızlıq, təhqirdir. Qadınla kişi arasında bərabərliyə zidd, ən təhlükəli vasitədir. Hansı ki, biz Gender bərabərliyindən danışırıq, lakin bu bərabərliyi pozan birinci amil selektiv abortlardır.

Selektiv abortların çoxalmasında, dünyada ölkəmizi birinci etməsində, oğlan və qız balansının pozulmasında, bunun gələcəkdə böyük problemlərə səbəb olmasında hər birimiz günahkarıq. Biz illər öncədən bu xalqa məxsus milli adət-ənənələrdən yola çıxmalıydıq. Bu yolda insanlığa balta çalan bu yeniliyi baltalamalı, onun inkişafının, yayılmasının qarşısını almalıydıq.

Bu gün son illərin statistikasına nəzər salanda bütün illərdə doğulan uşaqlar arasında oğlanların qızlardan artıq olmasını müşahidə edirik. Bunun yaratdığı problemlər isə artıq hiss olunmaqdadır. Yaxın gələcəkdə isə bu problemin ağırlığı çiyinlərimizi yara edəcək.

Bu gün Azərbaycanın selektiv abortlara görə dünyada birinci yerdə olması artıq səhiyyə sistemində həyəcan təbili çalınmasının vaxtının ötdüyünü göstərir. Selektiv abortlar indiyədək niyə qadağan olunmayıb? Görəsən bunun qarşısını nə kəsib? Çünki kiminsə haqqı deyil dünyaya gətirəcəyi uşağın cinsini əvvəlcədən bilsin. Heç kimin də bunu bilməməklə hüququ pozulmur. Bəs belə isə bu növ abort nə üçün qadağan olunmur?

Oğlanların sayı artır, qızların sayı dəfələrlə azalır. Biz gələcəkdə ana olacaq qız tapa bilməyəcəyik. Bir əmili, xalalı uşaq görməyəcəyik. Ən dəhşətlisi isə bacısız və qardaşsız bir cəmiyyətə doğru gedirik. Bu barədə düşünmək hələ də gec deyil...

***Mətanət Məmmədova***

# Rusiyalı ekspert: “Ermənistan Azərbaycandan üzr istəməli, ölkədən qovduğu qaçqınları geri qaytarmalıdır”



*Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko “Moskva-Baku” portalına müsahibəsində Ermənistanın baş naziri Nikol Paşinyanın KTMT ilə bağlı son təxribat xarakterli bəyanatlarını şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.*

**- İqor Yuryeviç, dünən Ermənistanın baş naziri mahiyyətcə bildirdi ki, respublika KTMT-yə qayıtmayacaq... Niyə məhz indi belə bəyanat verildi? Və biz yaxın gələcəkdə ölkənin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından qanuni olaraq çıxmasını gözləməliyikmi?**

- Hesab edirəm ki, Ermənistanın KTMT-dən çıxmasının vaxtı hələ çatmayıb. Niyə? Əvvəla, ona görə ki, İrəvanın həddindən artıq kəskin demarşları Rusiyanın Ermənistana qarşı iqtisadi sanksiyalar mexanizmini işə salmasına səbəb ola bilər. Və müvafiq olaraq, bu, Ermənistan Respublikası üçün ticarət-iqtisadi problemlər yaradacaq və büdcə üçün ciddi itkilərə səbəb olacaq. Paşinyan üçün isə bu, çətin ssenariyə çevriləcək. Ən azı indiki vaxtda. Rusiya ilə ticarət-iqtisadi əlaqələr və Aİİ-yə üzvlük Ermənistana böyük üstünlüklər verir. Qərbin vəd etdiyi iqtisadi dəstək və yardım isə Rusiya və KTMT-yə qarşı hücumlar nəticəsində Ermənistanın çəkə biləcəyi potensial itkilərlə müqayisədə kifayət qədər əhəmiyyətsizdir.

Nikol Paşinyanın dünənki aqressiv bəyanatları və KTMT müraciəti emosional demarşdan və Rusiya prezidenti Vladimir Putinin son çıxışına reaksiyadan başqa bir şey deyil. Yaxın gələcəkdə, fikrimcə, Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından qanuni şəkildə rəsmiləşdirilmiş çıxması baş tutmayacaq.

Eyni zamanda qeyd etmək lazımdır ki, biz görürük: Ermənistan KTMT ilə hər hansı əməkdaşlıq formatından imtina edir, müxtəlif səviyyəli görüşlərdə iştirak etmir, hərbi təlimlərdə, gündəlik fəaliyyətlərdə, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının planlaşdırılmasında iştirak etmir və qanunla müəyyən edilmiş rüsumları ödəməkdən imtina edir.

**- Əgər Ermənistan gələcəkdə KTMT-dən çıxsa, bu struktur üçün nə deməkdir?**

- Praktiki baxımdan Ermənistanın KTMT-dən çıxması, düzünü desək, struktur üçün mənfi siqnal olacaq. Üstəlik, əgər söhbət kollektiv təhlükəsizlik sistemindən, hərbi mexanizmlərdən gedirsə, Ermənistanın çıxmasından Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı heç də zərər çəkməyəcək. Amma siyasi baxımdan bu, Paşinyanın qərarı nəticəsində struktura ziyan vuracaq. Üstəlik, bunun İrəvanın KTMT-yə və bu strukturun üzvü olan dövlətlərə ünvanladığı neqativ və tez-tez bədnam bəyanatlarla müşayiət olunacağı göz qabağındadır. Ermənistan KTMT-dən çıxsa, bu, təşkilata müəyyən zərər vuracaq. Bu isə Rusiyaya qarşı hədsiz bir addımı nümayiş etdirəcək. Kreml Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxmasını belə qiymətləndirəcək.

Ermənistan, məncə, öz qərarlarının risklərini və nəticələrini kifayət qədər ölçüb-biçmir. İrəvanda, görünür, mənfi nəticələr ssenariləri baxımından ekspert rəylərinin dəqiq hesablanması və təhlilindən daha çox emosional yanaşma hələ də üstünlük təşkil edir. Ən azı Rusiya iqtisadi reaksiya rejimini işə salacaq. Şərhimdə vurğulamaq istəyirəm ki, mənim vəziyyəti qiymətləndirməyim Ermənistanı qorxutmaq deyil. Mən bir ekspert kimi hazırkı vəziyyəti Ermənistanın onun üçün hər hansı mümkün nəticələri ölçüb-biçməli olması kimi qiymətləndirirəm. Nəticələri isə Ermənistan Respublikası üçün böyük iqtisadi itkilər olacaq. Bu, Ermənistan meyvə-tərəvəzinin, kənd təsərrüfatı sektorunun ixracının sıfıra endirilməsi, fitosanitar nəzarətə qoyulan məhdudiyyətlərdir. Görünür, bundan sonra “erməni brendi” Rusiyaya yox, Fransaya ixrac olunacaq... İrəvanın sevimlisi olan Makron da buna lobbiçilik etsin. Görək necə edir.

Əgər Paşinyan KTMT və Rusiya ilə münasibətlərində “vintləri sıxır”, “ipi qırırsa”, unutmamalıdır ki, ermənilər hər il Rusiyadan Ermənistana təxminən 5-6 milyard dollar köçürürlər. Söhbət strateji sferada, hərbi təhlükəsizlik sahəsində, siyasi təmaslar sferasında münasibətlərin pozulmasından gedirsə, o zaman iqtisadi münasibətlərdə qırılma olacaq.




Bu baxımdan Ermənistanın baş naziri də öz seçki perspektivlərini hesablamalıdır. Bu, Ermənistan tərəfindən guya Rusiya və KTMT-nin köməyə gəlmədiyi haqda uydurma şüarlar səsləndirmək deyil. Əlbəttə, siz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını tərk edirsinizsə, bunun ardınca adekvat cavab gələcək.





Erməni elitası siyasi qərarların iqtisadi komponentini özləri üçün aydın təhlil etməlidir. Hələlik hər şeyin rəvan gedəcəyi illüziyası altında olduqlarını hiss edirlər.

Eyni zamanda Ermənistana hərbi zəmanəti kim verəcək? İran? Olmayacaq. İranın həm daxili, həm də xarici siyasətində onsuz da çoxlu problemləri var. Bundan əlavə, indi Suriya onun əhəmiyyətli səylərini, o cümlədən hərbi səylərini yayındıracaq. Düşünürəm ki, Tehranın İrəvanı fəlakətlərdən xilas etməyə vaxtı olmayacaq.

Digər variant isə Qərbin Ermənistana hərbi kontingent göndərməsidir- bütün bunlar kifayət qədər illüziyadır. Ona görə də Ermənistan Respublikasının KTMT-dən çıxması “təhlükəsizlik çətiri”nin itirilməsi ilə nəticələnəcək.

Paşinyan hər hansı iddiada olmaqdansa, Azərbaycanla sülh müqaviləsi imzalasın.

**- ABŞ Ermənistanda qərbyönümlü partiyaları Paşinyanın Qərbdən gələn tövsiyələri yerinə yetirməsinə nəzarət etmək üçün təşviq etmək niyyətindədir... Bu o deməkdirmi ki, onlar Ermənistanın baş nazirini Rusiyadan daha sürətlə açılmağa sövq etməyə çalışırlar?**

- Şübhəsiz ki. Bildiyiniz kimi, ABŞ-ın postsovet məkanında ən böyük səfirliyi Ermənistanda yerləşir və o, uzun müddətdir ki, İrəvanla Moskva arasında münasibətləri pozmağa çalışır.

Burada Gürcüstandakı vəziyyətə istinad etməyə bilmərik. Hakim “Gürcü arzusu”nun hakimiyyəti əlində saxladığı və “rəngli inqilablar” texnologiyalarına tab gətirdiyi bir şəraitdə Ermənistanın Vaşinqton və kollektiv Qərbin gözündə statusu onların regionda təsir əməliyyatları üçün mühüm tramplin kimi yüksələcək.

**- Azərbaycan Prezidenti dünən Ermənistandan qovulmuş azərbaycanlıların geri qaytarılmasının zəruriliyi və İrəvanın bu mövzuda dialoq aparmaması mövzusunu qaldırdı...**

- Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtması beynəlxalq hüquq baxımından tamamilə ədalətlidir. Ermənistan ərazisindən qovulmuş azərbaycanlılar və onların övladları geri qayıtmalı, Ermənistan hökuməti Azərbaycandan rəsmi üzr istəməli, təzminat ödəməli və azərbaycanlıların Ermənistan Respublikasına qaytarılması prosesinə başlamalıdır. Bu mövzu İrəvanda anlayışla qarşılanacaqmı? Yox. Onlar məsələnin özünü belə müzakirə etmək istəmirlər. Halbuki həqiqət həmişə qalib gəlir. Və İrəvanın azərbaycanlılarla dialoq aparmasının zəruriliyi getdikcə üstünlük təşkil edəcək. İndiki Ermənistan əsasən monoetnik dövlətdir. Bu isə millətçiliyin və milli eqoizmin böyüməsi üçün münbit zəmindir.

***Tərcümə - Elçin Bayramlı***

# "Növbəti aylarda baş verən hadisələr həlledici olacaq"



*"Gürcüstanda baş verən proseslər təkcə bu ölkənin daxilində gedən siyasi proseslərlə kifayətlənmir, xarici güclərin də geniş təsiri var. Gürcüstan bir keçid mərhələsindədir, siyasi, eyni zamanda ictimai sferada geniş formasiya prosesindən keçir.*



Bunun gec tez baş verməsi gözlənilən idi, gürcü cəmiyyəti və vətəndaş cəmiyyəti, fəallar hər nə qədər Gürcüstanı hazırkı Qərb-Rusiya qarşıdurmasında Qərb tərəfə çəkməyə çalışsalar da, Gürcüstan hakimiyyəti bu proseslərdə neytrallığını qoruyub saxlamağa, milli maraqlardan çıxış etməyə çalışır, birinci növbədə dövlətçilik maraqlarını önə çəkir". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Vüqar Əhmədov deyib.

O bildirib ki, Gürcüstan kimi daimi Avropa və Qərblə sıx inteqrasiya olunmuş cəmiyyət üçün bu yanaşma bir o qədər qəbul olunmadığından biz belə etirazların şahidi oluruq: "Lakin indi belə bir dönəmdir ki, növbəti Qərb-Rusiya qarşıdurmasının məkanı Gürcüstan ola bilər, ona görə hazırkı hökumət ölkəni təhlükələrdən qorumağa çalışır.

Etirazçılar dayanmır, çünki müəyyən sektorlarda islahatlar qaçılmazdır, bu isə ölkə daxilində müəyyən qruplara sərf etmir, çünki Qərbdən gələn böyük maliyyə axını əldən çıxır. Böyük ehtimal dekabrın 14-də Gürcüstanda keçiriləcək Prezident seçkilərində indiki Prezident məğlub olacaq, Gürcü Arzusunun yeni namizədi qalib gələcək, bununla hökumət daxilində böhran daha da dərinləşmiş olacaq, etirazçılar daha sərt addımlara əl ata, davamlı etiraz aksiyaları keçirilə bilər. Hökumət daxilində bir-birinin ardınca olan etirazlar və istefalar vəziyyəti daha da gərginləşdirir. Faktiki ölkədə indi etirazçı elektoratın əsas dəstəyi hazırkı Prezident Zurabaşvillidir. Əgər qarşıdakı Prezident seçkiləri ciddi insidentsiz keçərsə, faktiki hökumət qarşısında əsas məsələ baykot edən müxalifəti yenidən parlamentə qaytarmaq olacaq.

Bu mərhələ Gürcüstan dövlətçiliyinin möhkəmləndirilməsi, ölkənin təhlükəsizliyinin təmin olunmsı, ərazi bütövlüyü baxımından önəmli mərhələ sayıla bilər. Hökumətlər milli və dövlət maraqlarını qorumaq üçün bəzən sərt addımlar atırlar. Lakin sıravı vətəndaşı Avropaya vizasız gediş gəliş, Qərbin təqaüdləri və maliyyə imkanları daha çox düşündürür, meydanda da məzh bu təbəqədən olan insanları görmək olar. Ciddi qarşıdurmalar fonunda olsa belə Gürcüstanın bu mərhələni uğurla keçəcəyini ehtimal etmək olar, müxalifət və Qeyri-Hökumət Təşkilatları üçün gələcəkdə yeni dövlət proqramları qəbul oluna bilər. Əsas gələcək çağırışlardan biri də Gürücstanda QHT-lərin maliyyələşməsi məsələsi ola bilər, çünki Cənubi Qafqaz regionunda ən böyük sayda olan QHT-lərin sayı məhz Gürcüstandadır, region üzrə əsas beynəlxalq təşkilatlar Tiflisdə oturur, bunun də əsas səbəbi Qərbdən bu ölkəyə böyük maliyyə axınının olmasıdır. Buna bənzər prosesi digər ölkələr və cəmiyyətlər keçdiyi kimi, Gürcüstan üçün də bu proses qaçılmaz kimi görünür. Cəmiyyət hər nə qədər avro-inteqrasiya və açıq cəmiyyət tərəfdarı olsa da, Gürcüstanda müəyyən mühafizəkar kəsim buna qarşıdır, əlbəttə ki, müəyyən zamanla onları yerini dəyişərsə, Gürcüstandakı vəziyyət də dəyişə bilər. İstənilən halda növbəti aylarda baş verən hadisələr həlledici olacaq".

**Səbinə Hüseynli**

## "Nar"ın dəstəyi ilə Azərbaycan dili və ədəbiyyatı üzrə beynəlxalq simpozium keçirildi

Ölkənin ən sərfəli mobil operatoru olması ilə yanaşı, sosial layihələri də xüsusi diqqət mərkəzində saxlayan "Nar" "Azərbaycan dili və ədəbiyyatı araşdırmaları" adlı I Beynəlxalq Elmi Simpoziumun keçirilməsinə dəstək olub. Xəzər Universiteti və digər nüfuzlu ali təhsil müəssisələrinin təşkilatçılığı ilə baş tutan tədbir Azərbaycan dili və ədəbiyyatının inkişaf etdirilməsi və türk dünyasında daha geniş tanıdılması məqsədi ilə təşkil edilib. İki gün davam edən simpozium Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğız Respublikasının və Şimali Kipr Türk Respublikası kimi ölkələrin alimlərini bir araya gətirərək dil və ədəbiyyat üzrə aktuallığını qoruyan mövzuları müzakirəyə çıxarıb. Tədbirdə ümumilikdə 100-ə yaxın elmi tədqiqatçı müxtəlif mövzulu tezislərlə həm əyani, həm də onlayn sessiyalardaçıxış edib.Həmçinin, simpozium çərçivəsində milli dramaturgiyamızın görkəmli nümayəndəsi Cəfər Cabbarlının anadan olmasının 125 illiyinə həsr olunmuş elmi, musiqili bədii proqram təqdim edilib.

"Nar" ana dilimizin təbliği və mədəni irsimizin qorunmasını öz sosial məsuliyyət strategiyasının ayrılmaz hissəsi hesab edir. Simpoziumun dəstəkçisi olaraq, "Nar" bu sahədə gələcək elmi araşdırmalara, milli dəyərlərin təbliğinə və dilimizin beynəlxalq arenada möhkəmlənməsinə töhfə verməkdən qürur duyur.Qeyd edək ki, "Nar" təhsil, mədəniyyət və sosial layihələrdə fəal iştirak edərək Azərbaycan cəmiyyətinin dayanıqlı inkişafına dəstək göstərməyə davam edir. Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.






## Üzr istəyirəm!

**Mətanət Məmmədova**

***Yazdıqlarım kimin xətrinə dəyəcəksə, bəri başdan üzr istəyirəm. Ona görə üzr istəyirəm ki, həm üzr istəmək qabiliyyətinə, mədəniyyətinə malikəm, həm də bu gün Ümumdünya Üzr İstəmə Günüdür. İnsanlar xarici görünüşcə bir-birinə bənzəmədikləri kimi, xasiyyət və xaraktercə də bir-birinə əsla bənzəmirlər. Məsələn, adamlar var ki, onlara Allah-təala tərəfindən üzr istəmək qabiliyyəti nəsib olmayıb. Nə qədər səhv etsələr də, bilə-bilə ki, səhv edən tərəf onlardır, lakin ya üzr istəməyi bacarmır, ya da özlərinə sığışdırmırlar. Üzr istəmədikcə isə itirirlər: yaxınlarını, övladlarını, dost və rəfiqələrini, ətrafdakı bir heyvanı, bir ağacı, bir yarpağı, bir udum nəfəsi...***

Kaş ki, bu gün-üzr istəmə günündə bir möcüzə baş verərdi. Hər kəsə bir günlük də olsa, üzr istəmə qabiliyyəti bəxş olunardı. Bununla da üzr diləməyin necə böyük mədəniyyət olduğunu bilməyənlər bəlkə bu gün üzr diləyərdilər. Məsələn, kaş ki pəncərəmizin önündən hər gün maşınla-həm də toy karvanı kimi siqnallaya-siqnallaya keçərək başımızı xarab edən sürücülər nə qədər zülm etdiklərini anlayıb bu gün bizdən üzr diləyərdilər...

Marketlərdə bizi endirimli qiymətlərlə aldadan və paxırları kassa qarşısında faş olan market müdirləri əməllərinə görə bizdən məhz bu gün üzr istəyərdilər...

Eləcə də böyük endirim adı ilə camaatı axmaq yerinə qoyduqlarını zənn edən böyük ticarət mərkəzləri, mağazalar şəbəkəsi rəhbərləri heç olmasa, səhv etdiklərini, bizimsə onların kələklərini çox yaxşı bildiyimizi anlayıb heç olmasa, bu gün üzr diləyərdilər...

Yerdə hər addımda qarşılaşdığımız iyrənc tüpürcəyin sahibi olan kişilər ovqatımızı hər gün təlx etdiklərini dərk edib heç olmasa, bu gün bizdən üzr istəyərdilər...

Taksidə, ictimai nəqliyyatda, yolda, küçədə siqareti yandırıb bizi də tüstüsünə bürüyənlər, bəlkə bu gün nə etdiklərini anlayıb bizdən üzr istəyərdilər...

Metroda, küçədə ucadan danışıb-gülən bəzi gənclər bizə nə qədər mənfi enerji verdiklərini düşünüb heç olmasa, bircə dəfə-bu gün bizdən üzr diləyərdilər...

İctimai nəqliyyatda tərlərinin qoxusu ilə anadan əmdiyimiz südü burnumuzdan gətirən kişi-qadınlar kaş bunu anlayıb heç olmasa, bu gün bizdən üzr istəyərdilər...

Səs-küylərindən cana gəldiyimiz, guppultudan otaqların çilçıraqlarını yerindən qoparmaqda olan qonşular, özlərinə sığışdıra bilsələr, heç olmasa, bu gün bizdən bir üzr istəyərdilər...

Məişət tullantılarını, xüsusilə uşaq bezlərini balkonlardan aşağı tullayıb çoxlarımızın başında bərqərar edən insanlar, mədəniyyətin nə olduğunu 365 günün bircə günü anlayıb heç olmasa, bu gün bizdən üzr diləyərdilər...

Hər gün evində qanqaraçılıq yaradan, qadınına utanmadan əl qaldıran kişilər barı bu gün qadınlardan üzr istəyərdilər...

Valideyninin üzünə ağ olan, ona səsini qaldıran övladlar kaş ki bu gün səhvlərini anlaya, onlardan üzr diləyərdilər...

Ya tərbiyəsizliyinin, ya insafsızlığının heyfini küçədə bir itdən və ya pişikdən çıxaraq qulağını kəsən, ayaqlarından tutub başıaşağı sallayıb, hələ bunu özünə şan bilərək videosunu da utanmadan Tik Toka yerləşdirənlər bəlkə bu gün o it-pişikdən utanıb üzr istəyərdilər...

Ağacları qıraraq yerində hündürmərtəbəli evlər tikib öz biznesini quran "kişilər" bəlkə bu gün təbiətə vurduğu ziyanı dərk edər, ondan üzr diləyərdilər...

Düşünməyin ki, üzr istəyərik, qəbul etməzlər, pərt olarıq. Atalar deyir ki, qanan qanmazın hər zaman quludur. Bir də belə bir deyim var, üzr istəmək böyüklükdürsə, qəbul etmək fəzilətdir. Gəlin üzr istəyək, inanıram ki, üzrümüz qəbul olunacaq.





*İnkişaf etmiş ölkələr qalıq yanacaqlardan istifadəni dayandırmağı təklif edir. Bunun üçün ağlabatan bir bəhanə var: qlobal istiləşməni dayandırmaq. Amma reallıqda ətraf mühit uğrunda mübarizə "yaşıl kapitalizm" adlanan gəlir mənbəyinə çevrilir. İqlim dəyişikliyi son illərdə qlobal təhlükə olaraq təyin olunduğundan bəşəriyyət yeni terminologiyada həll yolu axtarır. "Yaşıl kapitalizm" bəziləri üçün çox qeyri-müəyyən bir anlayışdır, bəziləri üçün isə yeni gəlir mənbəyidir. Eyni zamanda, onun təklif etdiyi həll yollarının nə dərəcədə nəticəyönümlü olacağı da məlum deyil.*

# Yaşıl kapitalizm

## Yaxud, iri dövlətlərin iqlim dəyişikliyi üzərindən yeni pul qazanmaq fırıldağı?



"Yaşıl kapitalizm"in nə demək olduğuna aydınlıq gətirən mütəxəssislər onun ölkələr və şirkətlər tərəfindən necə istifadə edildiyini, iqlim dəyişikliyinə təsiri ətrafında müzakirələr apardığını açıqlayıblar. Dünyanın qlobal istiləşməsinə görə məsuliyyət daşıyan ABŞ, Çin və Avropa ölkələri iqlim böhranını həll etmək üçün milyardlarla dollar sərmayə qoyurlar. Bununla belə, bu dövlətlər indi istixana qazı emissiyalarında aparıcı rola, ağır sənayeyə doğru irəliləyişlərinə və guya mübarizə apardıqları iqlim böhranına davam edən mənfi töhfələrinə görə tənqid olunurlar. Bu ölkələr sənayeləşmədən böyük gəlir əldə edirlər.

Bu gün dünyada əsasən inkişaf etmiş ölkələr "eko-" prefiksi istiqamətində maliyyə və hüquqi tədbirlərə əl atırlar. Digər tərəfdən, alimlər xəbərdarlıq edirlər ki, istiləşmənin 1,5 dərəcə Selsi ilə məhdudlaşdırılması gecikir. Bu məsələ ilə bağlı ekspert rəyləri də kifayət qədər çoxdur. Bəziləri iddia edir ki, 2015-ci ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına əsasən imzalanmış və 2016-cı ildə qüvvəyə minmiş Paris Sazişi üzrə öhdəliklər iqlim böhranı ilə mübarizə üçün yetərli deyil. Digərləri isə işin sürətləndirilməsi ilə qəbul edilən qərarların həyata keçirilə biləcəyinə inanırlar. İqlim böhranını həll etmək üçün bütün dünyada geniş yayılmış konsensus iki nəsil ərzində, xüsusən də inkişaf etmiş ölkələrdə qalıq yanacaq istifadəsinə tam son qoymağı tələb edir. Lakin bu, inkişaf etmiş ölkələri fərqli investisiya yanaşmasına keçməyə və "yaşıl kapitalizm" adlı yeni iqtisadi konsepsiyanı qəbul etməyə məcbur edir.

Bəziləri iddia edir ki, iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün ortaya çıxan yaşıl kapitalizm bazar və texnoloji yeniliklər vasitəsilə ekoloji problemləri uğurla həll edə və növbəti sənaye inqilabına təkan verə bilən modeldir. Digərləri isə hesab edir ki, "yaşıl kapitalizm" anlayışı altında iqtisadi inkişafı yavaşlatmaq və ya məhdudlaşdırmaq kapitalist sisteminə ziddir və bununla bağlı həyata keçirilən ekoloji təmiz layihələr əslində nəzərdə tutulduğu kimi işləmir. Yaşıl kapitalizm və mənfəətə əsaslanan sistem, o cümlədən emissiya ticarəti vasitəsilə aparıcı ölkələr bazar yaratmaq istəyirlər. Eyni zamanda, bu sahədə texnoloji innovasiyaları təşviq etməyi hədəfləyirlər. Bunun vasitəsilə inkişaf etmiş ölkələr kimi müəyyən edilən ölkələr öz iqtisadi artımını və rifah səviyyələrini artırmağa çalışır və "iqlim dostu sənaye inqilabı"na başlayırlar.

### "Yaşıl" və "kapitalizm" bir-birinə zidd olan iki anlayışdır

Professor Viktor Uollis müsahibəsində iqlim dəyişikliyi ilə kapitalizm arasındakı əlaqəni qiymətləndirərək qeyd edib ki, kapitalist sistem iqlim böhranının həlli yolunda ən böyük maneələrdən biridir. Onun fikrincə, kapitalizm iqtisadi sistem olaraq daim genişlənməyə meyllidir, lakin məhdud resursları olan planetdə genişlənmə dayanmadan davam edə bilməz. Uollis hesab edir ki, "yaşıl kapitalizm" anlayışının özündə də bir ziddiyyət var. "Yaşıl" təbiətə hörmət tələb edir, yaşıl kapitalizm isə mədən yanacaqlarından istifadə etmək əvəzinə yalnız günəş enerjisini elektrik enerjisinə çevirmək ideyasına əsaslanır. Bu modeldə qalıq yanacaqların istifadəsi günəş enerjisi kimi təmiz enerji ilə əvəz olunur. Hal-hazırda görülən hər şey eyni iqtisadi sistemdə davam etdirilə bilər.

Benzinlə işləyən avtomobillər əvəzinə elektrik avtomobillərindən istifadə yaşıl kapitalizm nümunəsidir. Bu avtomobillərin yaradılması üçün istifadə olunan materialların emalı və hasilatı zamanı yenidən qalıq yanacaqlardan istifadə olunması faktı nəzərə alınmır. Onun dediyi kimi, yaşıl kapitalistlər böyük neft şirkətlərinin böyüdüyünü və böyüməkdə davam etdiyini nəzərə almırlar

### Bərpa olunan enerji qalıq yanacaqlardan daha ucuzdur

Almaniyanın Potsdam İqlim Dəyişiklikləri Tədqiqatları İnstitutunun direktoru və Postdam Universitetinin Geologiya departamentinin professoru Yohan Rokström deyib ki, Avropa İttifaqı və BMT kimi təşkilatların işi sürətlənsə, iqlim böhranının qarşısını almaq olar. Qlobal temperaturun 1,5 dərəcə Selsi ilə məhdudlaşdırılmasına gəlincə, Rockström bunun fövqəladə səylər tələb etsə də, mövcud şərtlərdə mümkün olduğunu vurğulayıb. Ekspert qeyd edib ki, bu məqsədə nail olmaq üçün 2050-ci ildən gec olmayaraq qlobal enerji sistemini və dünya iqtisadiyyatını karbonsuzlaşdırmaq tövsiyə olunur və bunun üçün istixana qazlarının emissiyasının qarşısını almaq lazımdır.

Onun sözlərinə görə, bu məqsədə çatmaq üçün qlobal qida sisteminin dünyada ən çox karbon qazı emissiyası yaradan sektora çevrilməsinin qarşısını almaq vacibdir. Bu şərtlər yerinə yetirilərsə və qlobal istiləşmə Selsi üzrə 1,5 dərəcə sabitləşərsə, o zaman Yerin şansı artacaq. Hazırda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının və Kioto Protokolunun əsasını təşkil edən və həm dövlət, həm də özəl qurumlar tərəfindən atmosferə dəyən zərərin qarşısının alınması məqsədi daşıyan "karbon ticarəti" bərpa olunan enerji mənbələrinə investisiyaları təşviq edir. Bu sistem dünyanı karbonsizləşdirmə yolunda mühüm addım kimi qiymətləndirilir.

Rokström həmçinin qeyd edib ki, qlobal iqtisadiyyatın dekarbonlaşdırılması mümkündür, lakin bunun üçün qalıq yanacaqlara (kömür, neft, təbii qaz) sərmayə qoyuluşunu dayandırmaq və Paris razılaşması kimi tənzimləyici çərçivələrə uyğun fəaliyyətə başlamaq lazımdır. Karbon qiymətlərinin tətbiqindən sonra Avropanın 2030-cu ilə qədər emissiyaları 55% azaldacağı proqnozlaşdırılır. Yeni texnologiyalar sayəsində bərpa olunan enerji indi qalıq yanacaq istehsalından daha ucuzdur.



Əminliklə demək olar ki, AB iqlim dəyişikliyi ilə mübarizədə BMT-dən daha uğurlu addımlar atıb. Maraqlısı odur ki, AB hərbi münaqişə və inflyasiyaya baxmayaraq, iqtisadi dekarbonizasiya yolu ilə sürətlə irəliləməkdə davam edir.

**V.VƏLİYEV**

# Şəhadətə qovuşanlar: vətən sevdalı Ceyhun Dünyamalıyev



***"Şəhidlər ölməz, vətən bölünməz", - deyiblər. Müdrik ifadədir. Torpağı bölünməyə qoymayan igid, ərən oğullarımız var və heç zaman Odlar Diyarı parçalanmaz, yağının işğalında qalmaz. Özü də sayı minlərlə, milyonlarladır ərənlərimizin. "Vətən dardadır" sözünü eşidər-eşitməz onun səsinə səs verib, bu torpağın hər qarışı var olsun, - deyə, onu qanları ilə suvaran oğulların diyarı olan bu məmləkət heç zaman basılmaz.***

44 günlük Vətən müharibəsində torpaq uğrunda mücadiləyə qalxaraq, erməni işğalında olan torpaqlarımızın azad olunması yolunda od-alov içinə atılan övladlarımızla yaşadığımız yüzilliyin Zəfər tarixini yazdılar. Müharibənin dəhşətlərinin nə olduğunu bilsələr də Azərbaycan Prezidenti, Ali Baş Komandanın çağırışına cavab olaraq, bir yumruq ətrafında birləşdilər. Sanki bu günü çoxdan gözələyirmiş kimi. Bəli, bütün vətən övladları bu çağırışı səbirsizliklə gözləyirdilər. Buna ac, möhtac idilər. Axı, işğalda olan əzəli torpaqlarımız öz sakinlərinin yolunun səbirsizliklə gözləyirdi. Dövlət başçısının həyata keçirdiyi siyasət nəticəsində hər açılan günümüz bizi bu torpaqlara bir addım da yaxınlaşdırırdı.

## "TƏKİ VƏTƏN SAĞ OLSUN!",- DEYİRLƏR

Vətən müharibəsində iştirak edən oğullarımız sırasında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin leytenantı, sonralar isə Vətən müharibəsinin şəhidi kimi tariximizə düşəcək Ceyhun Zeynal oğlu Dünyamalıyev də adı var. "Zabit qabaqda olar deyib", könüllü XTQ-yə qoşuldu Ceyhun Dünyamalıyev.

Maraqlıdır, igid oğullarımızdan biri olan Ceyhunun həyat yolu haradan və necə başlayıb? Belə oğulların həyat hekayəsini vərəqləndikcə ana laylasından, ana öyüdündən vətənə olan sevginin aşılandığını görürük. Mərd, qorxmaz analarımız beşik başından övladlarına vətən sevgisini ötürərək, onları mübariz, qorxmaz, vətənə əmanət olaraq böyüdürlər. Kim bilir gələcəkdə hansı bir keşməkeşli həyat onları gözləyir. Tariximizdən bizə belə anaların fədakarlığı aşılanır. Belə analar heç aman əyilməzlər, vüqarları ilə dünya qadınlarına nümunə olublar. Bu gün şəhid anası olan ANALARımız kimi. Hansının qapısını döysək, məğrur bir ana ilə qarşılaşacağıq. "Təki vətən sağ olsun!"- deyirlər. Nə qədər böyük hikmət var bu ifadədə. Qürur var bu anaların simasında, səsində. Sınmayan qürur qarşısında baş əyirsən, səcdə edirsən. İlahi, anadakı vüqara, gücə sənə bax! Üçrəngli Azərbaycan bayrağına bürünmüş oğul cəsədini necə qarşılayır. Oğulu vətən üçün böyütmüşəm,- deyirlər. Ceyhun Zeynal oğlunun anası kimi. Bir ana ilə həmsöhbət olmaq, onun hissləri qarşısında davam gətirmək çətin olsa da Azərbaycan Qadınının haqqında deyilən fikirlərin necə də yerində söylənildiyinin şahidi olursan. Ceyhunun anası Gülnarə Dünyamalıyevanın fikirlərini "Səs" qəzeti üçün qələmə almaq, ana hisslərini milyonlarla oxucularla bölüşmək məsuliyyətdir. Ana danışır və onun simasında, çöhrəsində yaranan ifadələri duymaq və yeri gələndə bu hissləri də qələmə almaq məqamıdır. Sanki dünyanın iki zolağı, iki hissi gəzir bu dünyada. Kədər və sevinc. Övlad itkisi, digər tərəfdən isə Şəhidlik zirvəsi, tarixi Zəfərimiz. Hər kəsə, hər xalqa nəsib olmayan bir yüksəklik, bir Qələbəlik. Ana danışır. Ceyhun Dünyamalıyevin dünyaya gəlməsindən, aldığı təhsilindən söz açır.

## ŞƏHİDLƏRİMİZ BİZİM SINMIŞ VÜQARIMIZI ÖZÜMÜZƏ QAYTARDILAR

İndi hər ili çözələdikcə bir obraz göz önünə gəlir: məktəbli, tələbə, hərbçi, ŞƏHİD. Bir insanın ömür naxışıdır. 1996-cı il oktyabrın 15-də Naxçıvan Muxtar Respublikasının Culfa şəhərində anadan olub. Gülnarə ana deyir ki, Ceyhun çox ağıllı, tərbiyəli, savadlı övlad idi: "Biz bir valideyn kimi hər zaman ondan razı olmuşuq. Ailədə də, məktəbdə də hər zaman özünü nümunəvi şəxs kimi aparıb. Orta məktəbdə oxuyarkən öz savadı və nizam-intizamı ilə hər zaman məktəb kollektivinin sevimlisi olub. Daha sonra orta məktəbi bitirdikdən sonra Heydər Əliyev adına Hərbi Liseydə və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil alıb. Bu illər ərizində də hər zaman bizlərdən uzaqda olmasına baxmayaraq, qayğısını, diqqətini ailəsindən əsirgəməyib. Daha sonra Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etməyə başlayıb. Ceyhun çox vətənpərvər övlad idi. Hər zaman deyirdi ki, biz tarixi torpaqlarımızı düşmən tapdağından azad etməliyik".

## BÜTÜN DÜNYA BU CƏSARƏTƏ, BU QƏHRƏMANLIĞA VƏ DƏYANƏTƏ ŞAHİDLİK ETDİ

Ana oğlunun söylədiklərini danışdıqca bitib-tükənmir. Bir insanın vətən sevgisindən danışır. Ömründən düşən yarpaqları oğul ömrünə calamışdı. İndi isə şəhid oğuldan danışır. Mərd övladından, xalqın övladından, Vətən oğlundan. Gülnarə ana dünənə boylanır. Ceyhunun söylədi fikirləri bizimlə bölüşür. "Qarabağ bizim əbədi və əzəli torpağımızdır, biz bu işğalla heç bir zaman barışa bilmərik" – dəyərdi Ceyhun həmişə. Ana danışır. Sanki bir dastan söyləyir bizlərə: "44 günlük Vətən müharibəsi başlayanda Ceyhun da digər qəhrəman oğullarımız kimi Vətənimizin müdafiəsinə qalxdı, vuruşdu, qanı, canı bahasına Qarabağımızı erməni işğalından azad etdi. Telefon danışığımız zamanı deyirdi ki, zabit qabaqda olmalıdır. O, çox mübariz və qətiyyətli idi. Bütün müsbət xarakteri, xoş ünsiyyəti ilə təkcə ailəsi tərəfindən deyil, onu tanıyan hər kəs tərəfindən sevilirdi. İndi isə övladımı bütün Azərbaycan tanıyır və onunla qürur duyur. Bütün şəhidlərimiz bizim qürur və iftixar mənbəyimizdir. Onların əziz xatirəsi bizlərin qəlbində daim yaşayacaq. Bir ana kimi istəyirəm ki, xalqımız qəhrəman şəhidlərimizi hər zaman, hər an yad etsin, gənclərimiz öz əməlləri ilə onların adlarını daim uca tutsunlar. Şəhidlərimiz bizim sınmış vüqarımızı özümüzə qaytardılar, ən şirin pay olan öz canlarını bu Vətən uğrunda, bu xalq uğrunda fəda etdilər. Bütün dünya bu cəsarətə, bu qəhrəmanlığa və dəyanətə şahidlik etdi. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç bir zaman sınmayacaq, əyilməyəcək, öz qətiyyəti və əmkarlığı ilə əsl nümunədir".



## ŞƏHİD ANALARININ YEGANƏ TƏSƏLLİSİ TARİXİ ZƏFƏRİMİZDİR

Şəhid anası, həmçinin bildirdi ki, Ceyhunun və onun simasında bütün şəhidlərimiz daim xalqımız tərəfindən xatırlanmalı, yad edilməli, onların qəhrəmanlıqları və cəsarəti bütün dünyaya göstərilməlidir: "Biz şəhid anaları və şəhid ailələri o zaman təsəlli tapırıq ki, bizim övladlarımız Vətənimiz, torpağımız uğrunda vuruşub, canını fəda edib. Şəhidlərimiz haqq mübarizəsində ən uca zirvə olan şəhadət zirvəsinə ucalıblar. Onlar heç bir zaman unudulmamalı və gələcək nəsillərə tanıdılmalıdırlar. Bizlər şəhid balalarımız yad edilərkən, xatırlanarkən rahatlıq tapırıq. Şəhid yoldaşını unutmayan və onun əziz xatirəsinə ehtiram əlaməti olaraq Azərbaycanın hərbi pilotları səmada olarkən Xüsusi Təyinatlı Qüvvələrin şəhid leytenant Dünyamalıyev Ceyhun Zeynal oğlunun şərəfinə onun adı yazılmış vərəqi səmada nümayiş etdirmələri bizlər üçün çox qürurverici oldu".

Şəhid anası daha sonra bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzuladı. Bildirdi ki, Qarabağ bizim tarixi torpağımızdır və qəhrəman oğullarımızın sayəsində əzəli torpaqlarımız yenidən bizlərə, əsl sahiblərinə qaytarıldı. Artıq Qarabağımızı heç bir qüvvə bizdən qopara bilməz. Çünki o torpaqlara neçə-neçə igid, qəhrəman övladımızın qanı tökülüb. O torpaqlar bizim üçün müqəddəsdir və ər zaman belə olacaq".

Azərbaycan Ordusunun leytenantı olan Ceyhun Dünyamalıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ döyüşlərində, Cəbrayıl, Füzuli, Zəngilan, Hadrut, Qubadlı, həmçinin Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ceyhun Dünyamalıyev noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Doğulub, boya-başa çatdığı Culfa şəhərində dəfn olunub.

## "ŞƏHİDLƏRİMİZİN RUHU İNDİ ŞADDIR, ÇÜNKİ TORPAQLARIMIZ AZADDIR"

Qeyd edək ki, müharibədə göstərdiyi igidliyə görə, vətən oğlu Ceyhun dövlətimiz tərəfindən bir neçə orden və medallara layiq görülüb. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən, Ceyhun Dünyamalıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən, ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən, Ceyhun Dünyamalıyev ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib. Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən, Ceyhun Dünyamalıyev ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilib. Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən, Ceyhun Dünyamalıyev ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilib.



Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ceyhun Dünyamalıyev ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.

Gülnarə xanım söhbətinin sonunda dedi ki, Ceyhun Dünyamalıyev və onun kimi qeyrətli oğullarımızın şəhadəti təbii ki, bizlər üçün olduqca kədərlidir. Ana üçün çox böyük dərddir: "Lakin bizlər, həm də qürurluyuq, ona görə ki, torpaqlarımız 30 ilə yaxın bir müddətdir qaldığı əsarətdən xilas olunub. Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər və vətənpərvər ordumuz bizlərin torpaq həsrətinə son qoyaraq, bizlərə dünya boyda sevinc və iftixar hisslərini yaşatdılar".

Ceyhun Culfada dəfn olunub, - deyir Ana. Hər gün insanlar onun və digər şəhidlərimizin məzarını ziyarət etmək üçün oraya axın edirlər: "İnanıram ki, şəhidlərimizin ruhu indi şaddır. Çünki torpaqlarımız azaddır".

***Nəzakət ƏLƏDDİNQIZI***

# MDB-nin 2025-ci il paytaxtı - Laçın şəhəri!







***Azərbaycanın füsunkar guşələrindən biri olan Laçın rayonu ölkəmizin cənub-qərbində, Kiçik Qafqazda yerləşir. Rayonun ərazisi şimaldan Kəlbəcər, cənubdan Qubadlı, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, qərbdən isə Ermənistanla həmsərhəddir. Rayonun 1 şəhər, 1 qəsəbə, 125 kəndi var. Rayon mərkəzi olan Laçın şəhəri Bakıdan şose yolla 450 km məsafədə yerləşir. Ümumi sahəsi 1 835 kvadrat kilometr olan Laçın rayonu 72 min hektar yaylaq sahəsinə və 34 min hektar zəngin meşə massivinə malikdir.***



Relyefi dağlıq olan rayonun dəniz səviyyəsindən hündürlüyü 700 metrlə 3 600 metr arasında dəyişir. Ən yüksək dağ zirvəsi Qızılboğazın hündürlüyü 3 594 metrdir. Bol su ehtiyatlarına malik olan rayonun ərazisindən axan Şəlvə və Minkənd çayları birləşərək Həkəri çayını (uzunluğu 113 km) yaradır ki, o da Araz çayına qovuşur.

1992-ci ilin may ayından ermənilərin işğalı altında olan Laçının azad edilməsi Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin siyasi liderliyi, sərkərdəlik qabiliyyəti və Azərbaycan Ordusunun Vətən müharibəsindəki uğurlu hərbi əməliyyatları nəticəsində mümkün olub. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyanın 2020-ci il noyabrın 10-da imzaladıqları üçtərəfli Bəyanata əsasən, Laçın rayonu dekabrın 1-də Azərbaycana qaytarılıb. Laçının azadlığına gedən yol isə 2020-ci ilin payızında başlayıb. Həmin ilin sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhədəki təxribatının qarşısını alan rəşadətli Azərbaycan Ordusu 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad edib. Belə ki, Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Lacın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sıgırt, Sukurataz yüksəkləri və daha 5 adsız yüksəklik düşməndən təmizlənib. 44 gün davam edən Vətən müharibəsi Azərbaycan Ordusunun parlaq qələbəsi ilə başa çatıb, işğalçılardan təmizlənən şəhər və kəndlərimizdə, qəsəbələrimizdə üçrəngli şanlı bayrağımız ucaldılıb. İşğalçı Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycan Ordusu qarşısında müqavimət göstərməyin faydasız olduğunu anlayaraq kapitulyasiya sənədinə imza atmağa məcbur olub. Bununla da 27 il işğal altında olan Laçın rayonu dekabrın 1-də qəsbkarlardan azad edilib, həmin gün Azərbaycan Ordusunun bölmələri rayona daxil olub və orada üçrəngli şanlı bayrağımız ucaldılıb. 2021-ci il fevralın 14-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Laçın rayonunda olublar. Dövlət başçısı rayonun Güləbird kəndində Azərbaycan bayrağını ucaldıb.

Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı sərəncamı ilə avqustun 26-sı Laçın Şəhəri Günü təsis edilib. Əlamətdar günün bu tarixdə qeyd olunması Azərbaycan Ordusunun Laçın şəhərində 2022-ci ilin avqustun 26-da yerləşməsi ilə əlaqədardır. Həmin gün Prezident İlham Əliyev azərbaycanlıların Laçın şəhərinə qayıtması ilə bağlı müjdəli xəbəri tvitter səhifəsində (indiki "X" sosial şəbəkəsi) elan edib. Dövlət başçısının paylaşdığı mətndə deyilir: "Bu gün, avqustun 26-da biz – Azərbaycanlılar Laçın şəhərinə qayıtmışıq. Azərbaycan Ordusu Laçın şəhərinə yerləşdi. Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bütün Laçınlıları və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm. Yaşasın Laçın! Yaşasın Azərbaycan!"

Son dörd il ərzində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dəfələrlə Laçın rayonunda səfərdə olublar, orada həyata keçirilən təmir, bərpa və yenidənqurma işləri ilə tanış olublar. Hazırda Laçında bərpa-yenidənqurma işləri sürətlə aparılır, yeni infrastruktur qurulur, rayon dirçəldilir. Rayon ərazisində yolların tikintisi, bütün infrastrukturun bərpası istiqaməti üzrə müvafiq işlər davam etdirilir. Artıq infrastruktur layihələrinin böyük bir qismi tamamlanıb. İnşa edilən yeni evlərin gözəl dizaynı və mənzərəsi baxanları heyran edir, sözün əsl mənasında, Laçın ən müasir bir şəhərə çevrilir. Bu günə qədər Laçın rayonuna 3 min 128 sakin köçürülüb. Onlardan 2 min 90 nəfər Laçın şəhərində yaşayır, qalan 1038-i isə rayonun Zabux və Sus kəndlərində məskunlaşıblar. Sus kəndinin davamı olaraq Bəylik kəndində işlər davam edir. Gələn ilə 91 ailənin buraya köçürülməsi nəzərdə tutulur. Digər layihə isə Güləbird kəndinin tikintisidir. Burada da layihə işləri davam etdirilir. 2025-2026-cı illərdə bu kəndə sakinlərin köçü nəzərdə tutulur.

Laçın rayonunun Qorçu kəndində, dəniz səviyyəsindən 1800 metr hündürlükdə inşa edilən, bütün növ, o cümlədən ağır yük təyyarələrini qəbul edə biləcək Laçın aeroportu mühüm strateji əhəmiyyətə malikdir. Təməli 2021-ci ildə qoyulan, enmə, qalxma zolağının uzunluğu 3 kilometr olan hava limanında ICAO və IATA standartlarına uyğun uçuşlar həyata keçiriləcək, burada 6 təyyarə dayanacağı olacaq. Beynəlxalq standartlara uyğun olaraq layihələndirilən terminal binasının sahəsi 5 min kvadratmetrdir. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə də gediş-gəlişi asanlaşdıracaq. 2021-ci il avqust ayının 16-da Laçın Beynəlxalq Hava Limanının təməlini qoyan Prezident İlham Əliyev demişdir: "Mən hesab edirəm ki, dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir. Çünki bütün hava limanları adətən düzən ərazidə inşa edilmişdir. Burada belə yer olmadığı üçün yeganə yer bura - Laçın rayonunun Qorçu kəndi seçilib. Bu yerin üstünlüyü, eyni zamanda ondadır ki, Laçın şəhərinə məsafə 30 kilometrdən bir qədər çox, Kəlbəcər şəhərinə məsafə isə 60 kilometrdən bir qədər çoxdur. Eyni zamanda Şuşa şəhərinə məsafə də 70 kilometrə yaxındır. Yəni gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq". Ölkə başçısı həmçinin Laçında hava limanının açılmasının iqtisadi baxımdan böyük əhəmiyyət kəsb etdiyini və beynəlxalq statuslu bu hava limanının bölgəyə xarici turistlərin gəlməsinə geniş imkanlar yaradacağını vurğulayıb. Laçın rayonunun füsunkar mənzərələri arasında yerləşən Laçın Beynəlxalq Hava Limanının strateji mövqedə yerləşməsi turizm sahəsi ilə yanaşı, kənd təsərrüfatı və sənayenin inkişafı üçün geniş imkanlar yaradacaq, həm də yüklərin daşınmasını asanlaşdıracaq. Hava limanının müasir sərnişin və yükdaşıma imkanlarına malik olması respublika daxilində, eyni zamanda qonşu ölkələrlə əlaqələri gücləndirəcək, ticarət və mədəni mübadiləleri təşviq edəcək. Hava limanı regionun qlobal aviasiya şəbəkəsinə qoşulmasında, sərnişin və yüklərin səmərəli daşınmasında mühüm rol oynayacaq ki, bu da öz növbəsində iqtisadi inkişafı yüksəldəcək. Ölkəmizin 9-cu Beynəlxalq Hava Limanı olan Laçın Beynəlxalq Hava Limanının gələn il istifadəyə verilməsi nəzərdə tutulub.

Bu il sentyabr ayının 17-də Rusiyanın Ufa şəhərində Dövlətlərarası Humanitar Əməkdaşlıq üzrə Fondun 17-ci forumunda Laçın şəhəri MDB-nin 2025-ci il paytaxtı elan edilib. Bu, Vətən müharibəsindəki tarixi zəfərimizdən, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpasından sonra azad yurdlarımızın bərpası və inkişafı istiqamətindəki səylərimizin beynəlxalq səviyyədə dəstəklənməsinin daha bir göstəricisidir. Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilməsi Azərbaycanın regiondakı mədəni əhəmiyyətini artırmaqla yanaşı, beynəlxalq nüfuzundan da xəbər verir.

***Sevinc Azadi***

# Ermənistanla bağlı İSTEHZALAR



*Ermənistan məhz öz iştirakını dondurduğu KTMT-dən "layiqli münasibət" gördüyü üçün haylar yamanca pərt oldular. Bununla belə, öz pərtliklərinin səbəbini də hansısa formada izah etməyə çalışırlar ki, gülünc günə qaldıqlarını ört-basdır edə bilsinlər. Amma başa düşsələr belə, etiraf edə bilmirlər ki, bü şəkildə "gülünc" duruma düşmələrində günahkar başqaları yox, özləridirlər. Yenə də kimləri isə, hansısa təşkilatı belə günahkar bəlləməyə çalışan hayların öz gözlərində tiri görmədən, hələ də başqasının gözündə tük axtarışında olmaq kimi bir xislətlərinə sadiq qaldıqları davamlı şəkildə özünü göstərir.*

### Fəaliyyətlərini "dondurmaq" kimi bir çıxış yolunu guya haylar ən doğru addım sayırlarmış

Guya ki, haylar sözügedən təşkilatda nəyinsə "səhv" olduğu qənaətindədirlər və buna görə də fəaliyyətlərini "dondurmaq" kimi bir çıxış yolunu ən doğru addım sayırlarmış. Maraqlıdır, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Astanada keçirilən sammitində iştirak etməyən Ermənistan tərəfi bununla nə demək istəyib və görəsən, Paşinyan hakimiyyətinin iştirak edib-etməməsinin həmin sammitin keçirilməsi üçün zərrə qədər də fərq etmədiyini haylar geç də olsa başa düşəblərmi? Başa düşüblərmi ki, onların iştirakı heç vacib də deyilmiş və nəzərə də alınmırmış? Belə olan halda daha bir sual yaranır ki, görəsən, Ermənistan ümumiyyətlə, KTMT kimi bir təşkilatın özünün nəyinə lazım idi ki, həmin təşkilata işğalçı ölkəni hələ bir üzv də edirdi? İndi də haylar həmin təşkilata absaurd şəkildə, üstəlik bir ağız da büzürlər və guya bunlara heç "yaraşan" da deyilmiş...

Hayların özlərinə hansı təskinliyi vermək istədiklərini görmək çətin deyil. Qatılmadıqları sammitdə Rusiya və Belarus prezidentləri Vladimir Putin və Aleksandr Lukaşenko kimi liderlərin iştirak etməsi ermənilərin arzulamadıqları hal olsa da, onlar bunu gizlətməyə çalışırlar. Elə arzulamadıqları halı da məhz gizlətmək üçün də ağız büzürlər. Amma bir məsələni nəzərdən qaçırırlar ki, elə həmin sammitdə də onların iştirak etməmələri yaxşıca "vurğulanıb" və hər halda, bunun nə demək olduğunu haylar özləri hamıdan yaxşı bilirlər. "KTMT sammitində Ermənistanın iştirak etməməsi təşkilatı xarakterizə edir", deyə Belarus lideri Aleksandr Qriqoryeviçin vurğulamasının nə demək olduğunu ermənilər yaxşı başa düşsələr də buna da tamamilə başqa don geyindirməyə çalışırlar. Qeyd olunduğu kimi, əgər Ermənistan kimi bir işğalçı ölkənin sammitdə iştirak edib-etməməsinin həmin sammitin keçirilməsinə zərrə qədər də təsir etmədiyi kontekstində həqiqətən də həmin ölkənin KTMT-də olması nəyə lazım idi və Lukaşenko cənabları da məhz buna eyham vurub. Amma haylar bunu öz istədikləri kimi izah etməyə çalışırlar. Ermənilərin növbəti uydurmalarına görə, guya Belarus lideri təşkilatın özündə günah görübmüş və dırnaq arasında "bu yekəlikdə" bir ölkənin, özü də işğalçı ölkənin təşkilatda iştirak etməməsi sən demə, tamamilə böyük bir "fəlakət" kimi görünürmüş. Tamamilə absurd yanaşmadır və bu, haylardan başqa hansısa bir toplumun belə ağlına gəlməzdi, çünki dünyada onlar qədər, hay qədər həyasız olan toplum yoxdur ki, bu boyda həyasızlıq ağıla da gələ bilsin.

### Hansısa bir qərar şansı haylara verilən deyil və bu şansı da əllərindən qaçıranlara, bütövlükdə Ermənistana öz yeri yaxşıca göstərilib

Xatırladaq ki, Ermənistanın KTMT-də iştirakının dondurulması barədə qərarı bu il fevralın sonunda baş nazir Nikol Paşinyan "France 24" telekanalına müsahibəsində "bəyan" etmişdi. Niyə belə bir qərara gəlindiyi və "dondurmanın" niyə baş verdiyini erməni baş nazir Paşinyan özü də guya ki, cavablandırmışdı. Yəni, ona və təmsil etdiyi auditoriyaya elə gəlir ki, buna cavab demək olar, amma bu cavab yox, yaxud əsas yox, sadəcə, bəhanə idi. Təşkilatın öz öhdəliklərini yerinə yetirməməsi kimi bir iddia ilə çıxış edən Nikol həm də təşkilatın özünə də böhtan atmış olub və guya heç bunun fərqində də olmayıb. İndi gülünc vəziyyətə düşməsi də belə əsassız və mənasız bəhanələrə görədir və indi haylar daha çox diqqəti yayındırmağa çalışırlar ki, düşdükləri gülməli durumu ört-basdır edə bilsinlər.

"Astanaya gəlsəydi, erməni nümayəndə heyəti əlifba sırası qaydası ilə birinci çıxış edəcəkdi", deyən Belarus prezidentinin istehzasını da, özlərini bilməməzliyə vursalar belə, haylar yaxşı başa düşüblər. Həqiqətən də çox gülməli bir ifadədir və bu ifadə elə bil ki, bayram masasında bir uşağa tort kəsmək və ya bir şüşə şampanı açmaq üçün etibar ediləcəyini vəd etmək kimi yanaşmadır. Əslində, daha bir ustalıqla işarə olunur ki, haylara bundan başqa hansısa bir qərar şansı verilən deyil və verilə də bilməz. Həm də çatdırılır ki, əgər sammitdə iştirak etməyiblərsə, bu "şans" da əllərindən çıxıb. Yəni, başqa hansısa xam xəyallara düşməmələri barədə çox böyük ustalıqla, özü də diplomatik qaydada mesaj verilib və haylara, bütövlükdə Ermənistana öz yeri yaxşıca göstərilib. Elə ona görə də hayların tüstüləri başlarından çıxır. "Od olmasa tüstü çıxmaz", zərb məsəlində deyildiyi kimi, indi ortada olan tüstünün səbəbsiz olmaması zərrə qədər də şübhə doğurmur.

### Lağ hədəfi olduqlarını qəbul edirlər, amma bunu gizlətməyə çalışırlar, öz xislətlərinə uyğun şəkildə "artistlik" edirlər

Hər dəfə çıxışları zamanı erməni baş nazirin ortaya atdığı qeyri-kamil, qeyri-müəyyən ifadələri haylar yaxşı xatırlayırlar. Onun rus dilində biabırçı vəziyyətdə olan nitqləri də unudulan deyil. Nikol Paşinyanın hər dəfə çıxış etdiyində necə kəkələdiyi də "yaddaşlara həkk olunub" və indi haylar onsuz da lağ hədəfi olduqlarını qəbul da edirlər, amma bunu gizlətməyə çalışırlar. Məhz elə ona görə də öz xislətlərinə uyğun şəkildə "artistlik" edirlər. Hər dəfə Ermənistan üzərində guya təhlükənin olduğunu çatdırmağa çalışdığını göstərmək istəyən erməni baş nazir elə hər dəfə də hamıya "əl açıb" dəstək istəyib, yalvararaq dilənib. Onun KTMT kimi bir təşkilata üzv olmaqda da ancaq "əl açmaq", dəstək istəmək, dilənmək niyyətində olduğu dərhal ortaya çıxıb. Hər halda təşkilata üzv ölkələrin rəhbərləri, liderləri bunu dərhal başa düşüblər və onların qətiyyən diqqətindən bu məqam yayınmayıb. Xüsusən də, rəsmi İrəvanın həmin dəstəyi, köməyi, yardımı yeri gəldi-gəlmədi umması da liderlərin nəzərindən qaçmayıb və indi vurulan eyhamları haylar çox yaxşı başa düşürlər.



Haylar yaxşı başa düşürlər ki, KTMT ölkələrinin rəhbərləri onların baş nazirlərinə soyuq münasibəti niyə bəsləyirdilər. Bunun səbəbini də yaxşı başa düşürlər və mənasını da gözəl anlayırlar. Başa düşürlər ki, Paşinyanı baş nazir kürsüsünə üsyankar küçə gətirdi və həmin usyankarlar indi Rusiyanı da, Belarusu da, ümumilikdə, KTMT-ni də hesaba belə almırlar. Anlayırlar ki, məhz elə buna görə də Paşinyanın "ipinin üstünə yük qoymaq" kimi bir niyyətləri ola bilməz və onu heç öz aralarında görmək də istəyən yoxdur. Bəli, Nikol Paşinyana, onun hakimiyyət komandasına, bütövlükdə Ermənistana qarşı ciddi istehzalar göz önündədir və danılmazdır və bunun səbəbsiz olmadığı da ortadadır.

### Ermənilərin ağız büzmələrinə Rusiya lideri tərəfindən yerində verilən qısa, arqumentli və kəskin cavab

"Ermənistan Qarabağı müstəqil dövlət kimi tanımırdı və sözsüz ki, Qarabağı öz dövlət perimetrinə daxil etməyib. Bu o deməkdir ki, Qarabağda baş verənlərin hamısının hüquqi baxımdan Ermənistanla birbaşa əlaqəsi yoxdur. KTMT-nin Dağlıq Qarabağ ərazisində döyüşməli olduğunu iddia etmək qəribədir", deyə sammitdə bəyan edən Rusiya prezidenti Vladimir Putin sanki, hayların, onların Astanaya gəlməyən nümayəndələrinin əyri ağızlarından vurmuş olub. Daha dəqiq desək, Rusiya liderinin həmin sözləri Paşinyanın ağız büzməsinə qısa, arqumentli və kəskin cavabdır. Bunu haylar qəbul etsələr də, etməsələr də reallıq belədir və həmin reallığı Putin açıq şəkildə bildirib.

Həqiqətən də haylar arasında bu məqamda dedikləri ilə razılaşan ermənilər də az deyillər. Əslində, hər kəs, xüsusən haylar özləri də bilirlər ki, Ermənistan Dağlıq Qarabağı öz ərazisi, hətta müstəqil dövlət kimi tanımayıb, yaxud, tanıya bilməyib. Deməli, Putin məhz bunu demək istəyib və deməkdə də haqlıdır ki, Rusiya heç bir halda hərbi əməliyyatlarda Ermənistan tərəfində iştirak edə bilməz. İndi haylara növbəti dəfə məhz Astanadan açıq şəkildə bəyan edilir ki, Rusiya və hansısa digər ölkə məsələyə qarışmaqdan qanuni olaraq imtina etməkdə haqlıdır.

### Üzvlüyün dondurulmasını istehza ilə məhz dondurucuya bənzədən metafora

Ötən həftə müxalifət cərgəsində olan "Ermənistan" fraksiyasının deputatı Artur Xaçatryan özü original bir metafora ilə çıxış edib və hayların yaddaşına da bu yazılmış olar. "KTMT-yə üzvlük dondurulub sonra əridilə bilən dondurucuda olan toyuq deyil", deyən erməni deputat özü belə öz vəziyyətlərini lağa qoyur və Ermənistanın vəziyyətinə istehza ilə yanaşır. Əslində, başqa şəkildə mümkün də deyil və "Ermənistan" fraksiyasının deputatı, müxalifətçi Artur Xaçatryan bunu aydın şəkildə ifadə edir. "Toyuq" və onun dondurulması fikrini davam etdirərək, demək istəyirəm ki, hər şeyi özümüz eldik və "toyuq" da kəsildi və biz indi onu yenidən "əzizləsək" də, artıq qaçmayacaq, səsi çıxmayacaq və yumurta da qoymayacaq", deyə Artur Xaçatryan bundan sonra heç nə edə bilməyəklərinə, yanlış yolda olduqlarına işarə vurmuş olub. Daha dəqiq desək, istehzaların yerli-yerində olduğu qənaətini açıq şəkildə bildirib.

Bəli, Lukaşenko haqlı olub və Ermənistanın məhz Astanaya yollanmamasının, sammitə qatılmamasının məhz həqiqətən də KTMT kimi bir təşkilatı xarakterizə etməsi, səciyyələndirməsi fikri tam yerində işlənib. Ona görə ki, belə bir işğalçı ölkəni, öz günahını başqalarının üstünə atmaq istəyən, hətta böhtana belə əl atan dövləti sıralarına qəbul etməyi məhz Belarus lideri KTMT kimi bir quruma yaraşdırmayıb. Yaraşdırmadığı üçün də öz sözünü, öz fikrini məhz istehza ilə ifadə edib...

**_İnam Hacıyev_**

2024-cü ildə Bakı şəhəri üzrə 1300-ə yaxın uşaq diabet xəstəliyi səbəbindən Respublika Endokrinoloji Mərkəzində qeydiyyata alınıb. Ölkə üzrə isə 3 minə yaxın uşaq şəkərli diabetdən əziyyət çəkir. Qeydiyyatda olan uşaqlara hər gün insulin inyeksiya edilir. Bu il TƏBİB-in və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin dəstəyi ilə uşaqlar davamlı qlükoza monitorinq cihazı ilə təmin olunub.



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti çərçivəsində hazırlanıb.*



# Diabet: Azərbaycanda 3 min uşaq...

Bədənin qidalanma mənbəyi olan şəkəri balanslaşdıran ən vacib hormonlardan biri insulindir. “Diabetes mellitus”, el dili ilə desək şəkər xəstəliyi bu hormonun pozulması səbəbindən yaranır. Əvvəllər böyüklərin xəstəliyi olaraq qəbul edilsə də indi uşaqların da şəkərli diabetdən əziyyət çəkməsi tez-tez rastlanır. Diabet iki növə bölünür: Tip 1 və Tip 2. Əvvəllər ”insulindən asılı diabet” adlanan 1-ci tip diabetdə qanda şəkərin toxumalara daxil olmasını təmin edən insulin hormonunun istehsal olunduğu mədəaltı vəzi hüceyrələri zədələnir. 2-ci tip şəkərli diabet toxumaların insulin hormonuna qarşı həssas olması nəticəsində yaranır, buna görə də qanda olan şəkər toxumalara daxil ola bilmir.





Uşaqlarda şəkər xəstəliyinə nəyin səbəb olduğu elmə dəqiq məlum deyil. Ailədə şəkərli diabet xəstələri olsa uşaqlar şəkərli diabetə meylli ola bilər, lakin bu genetik irsiyyət ailədəki hər uşaqda şəkər xəstəliyi yaranacaq demək deyil. Tip 1 diabet, insulin istehsal etməyə kömək edən mədəaltı vəzinin hüceyrələrində immun sistemi problemlərinin yaratdığı zərər nəticəsində yarana bilər. Tip 2 diabet yetkinlik dövründə daha çox rast gəlinsə də, uşaqlarda da nadir hallarda baş verə bilər. Xüsusilə 2-ci tip şəkərli diabetə meylli uşaqlarda artıq çəki (piylənmə) və daha az fiziki hərəkət diabetin yaranmasına səbəb ola bilər.

Uşaqlarda bir sıra əlamətlərin baş qaldırması diabet xəstəliyinin xəbərçisi ola bilər. Artan sidik ifrazı, yatağı islatmaq, həddindən artıq susuzluq və su istehlakı, ağızın quruması, həddindən artıq aclıq hissi, davamlı yorğunluq, arıqlamaq, depressiya kimi əlamətlər varsa uşaqlarda diabet xəstəliyinin yaranmasında şübhələnmək olar.

Ümumdünya Səhiyyə Təşkilatı xəbərdarlıq edir ki, səhər yeməyi körpə və məktəbyaşlı uşaqların böyüməsində və inkişafında ən önəmli faktordur. Təşkilatın məktəbli uşaqlarda diabet xəstəliyinin yayılması ilə bağlı araşdırmasında bildirilir ki, səhərlər yemək yemədikdə nahara qədər mədədə 4-6 saatlıq aclıq olur və bu da xüsusilə uşaqlarda şəkərli diabetə yol açır. Bu səbəbdən uşaqlarda diabetə rastlanma halları 12-13 yaşa qədər enib. Pediatr Pəri Həsənova səhər yeməyi yemədən evdən çıxan uşaqların bayırda dönər, bulka, şirniyyat, şokalad kimi karbohidratlarla zəngin qidaları yediyini və bu qidaların da diabetə təkan verən önəmli bir faktor olduğunu deyir.

Uşaqların digər bir böyük probleminin məktəb bufetləri olduğunu deyən pediatr bildirir ki, uşaqlar məktəbdə istədikləri hazır qidanı tapıb yeyə bilir: “Düzdür, bir-iki il qabaq bufetlərdən çipsi, kola kimi zərərli qidaları yığışdırdılar, amma yenə də peçenye, şokalad, bulkalar satılır. Üstəlik, evdə səhər yeməyi yeməyən uşağın cibinə valideyni də pul qoyur ki, dükandan, bufetdən nəsə alıb yesin. Uşaq da yolüstü mağazalardan çipsi, dönər, kola kimi zərərli qidaları alıb yığır çantasına, məktəbdə bu qidaları yeyir. Üstəlik bu qidaların mütəmadi qəbulundan sonra uşaqlarda mədə problemləri, bağırsaq narahatlıqları, qəbizlik yaranır”.

Pediatr valideynlərə uşaqların məktəb çantasına qoyulacaq qidaları da sadaladı: “Yaxşı olar ki, övladınızın çantasına qoz, fındıq, badam, şabalıd, meyvə və ya meyvə quruları qoyasınız. Uşağa mütləq səhər yeməyi yedirin, məktəbə qətiyyən ac göndərməyin. Səhərlər süd, yumurta, ağartı məhsulları yedirin. Əgər məktəbdə qalma saatı çoxdursa o zaman çantasına əlavə olaraq evdə hazırladığınız sendviç qoya bilərsiniz. Sendviçi təmiz ətdən hazırlanmış kotlet, pomidor və xiyar, göyərtidən hazırlaya bilərsiniz.





Ketçup yerinə ev üsulu tomat istifadə edin, mayonezin istifadəsini məsləhət görmürəm”.

Anaların bir çoxunun səhərlər oyanmağa tənbəllik etdiyini də diqqətə çatdıran pediatr bildirir ki, bu tənbəllik uşaqların həyatına ciddi formada təsir göstərir: “Səhərlər uşaqların yemək yeməsi valideyndən asılıdır. Əgər onların marağına səbəb olan səhər yeməkləri hazırlansa, məsələn boşqabda maraqlı bəzəklər düzəldilsə, səhər yeməyinin vacibliyi barədə uşaqlarla söhbət edilsə nəticə effektiv olacaq. Unutmayın, səhər ac məktəbə göndərdiyiniz uşaq hər gün bir az da şəkərli diabetə yaxınlaşır”.

Qidalanma və pəhriz eksperti, həkim Rövşən Sadiqinin sözlərinə görə, səhər yeməyi böyüməkdə olan uşaqların gündəlik enerji və qida ehtiyacını ödəməsi ilə yanaşı məktəbdəki müvəffəqiyyətinə də təsir edir: “Axşam şam yeməyindən sonra yatan uşaqların səhər yeməyinə qədər 10-12 saatlıq zamanı yuxuda keçir, bu müddət ərzində təbii olaraq orqanizm axşam qəbul etdiyi qidanı həzmə göndərir, yenidən acır və yemək tələb edir. Yeni bir günə yemək yemədən başlamaq o ehtiyacı içimizdə boğmaq və bədənin tələbinə əhəmiyyət verməmək deməkdir. Xüsusilə də səhər yeməyi yeməyən uşaqların dərsdə diqqəti azalır, verilən tapşırıqları çətin qavrayır, dərsdə aktivliyi azalır. Səhər yeməyi uşaqlarda qavrama bacarığını artırır, çünki səhərlər sağlam qidalanma ilə uşaqların beynində enerji və diqqət artımı olur”.



Ekspert deyir ki, səhər yeməyində kifayət qədər zülal istehlak edilməlidir: “Xüsusilə, süd, taxıl məhsulları, sıyıq və ya kobud undan hazırlanmış çörək, meyvə vacibdir. Zehni fəaliyyətlərin tələb etdiyi enerji resurslarının ən mühümlərindən biri də meyvələrdir. Beynin oksigendən başqa yeganə enerjisi qlükozadır və bədənimiz qlükoza anbarına malik deyil. Yəni başqa vitaminləri bədənimiz özündə mühavizə edib anbar kimi saxlaya bilir, orqanizmin ehtiyacı olanda lazımı yerlərə ötürə bilir, amma bu qlükozada mümkün olmur. Qlükoza meyvələrdə hazır halda olur, ona görə səhərlər istehlak edilməlidir. Əgər səhər uşaqlara yedirə bilmirsinizsə mütləq məktəb çantasına qoyun, məktəbdə yesinlər. Meyvələrin tərkibindəki qlükoza qanda şəkərin miqdarını tənzimləyir, nə normadan aşağı düşməyə, nə də normadan yuxarı çıxmağa qoymur”.

Müsahibimiz də səhər yeməyi yeməyən uşaqların şəkərli diabetə tutulma riskini təsdiqlədi: “Səhərlər yemək yeməyən uşaqlarda qan şəkərinin səviyyəsi kəskin düşür, məktəbdə özünü yaxşı hiss etmir, halsızlıq, mürgüləmə, özündəngetmə, tərləmə, ürəkdə döyüntünün sürətlənməsi, mədə ağrısı, ürəkbulanması və sancılanma halları baş verir. Aparılan araşdırmalar da təsdiq edir ki, səhərlər yaxşı qəlyanaltı edən uşaqlar məktəbdə uğur əldə edir, səhər yeməyi yeməyən yaşıdlarından fərqlənir. Uşaqlara səhərlər karbohidrad mənbəyi kimi çovdar və ya kobud taxıl unundan hazırlanmış çörək, tərəvəz, meyvə və ya meyvə şirəsi, zülal mənbəyi kimi pendir, yumurta, süd və qatıq, yağ mənbəyi kimi nəhrə yağı, qoz, badam, fındıq, bal və ya doşab kimi sağlam qidalarla zənginləşdirilmiş bir menyu təşkil edə bilərik”.

Əgər övladınızı uzun zamandır səhər qəlyanaltısı etmirsə, məktəbə ac gedirsə və onda çox su içmə, tez-tez sidiyə getmə, çəkisində getdikcə azalma və halsızlıq müşahidə edirsinizsə şəkərli diabetdən şübhələnin. Orqanizm qandakı şəkəri istifadə edə bilmədiyi üçün bədəndəki yağları istifadə edir və buna görə də arıqlama baş verir, bu vəziyyətə qarın ağrısı, ürəkbulanma və tez-tez nəfəs alma da əlavə olunur. Nəzərə alın ki, uşaqlarda diabet elə ilk mərhələsindən insulinlə müalicə edilir, ona görə ilkin diaqnozun nə qədər erkən olması müalicədə bir o qədər irəliləmə imkanı verir. Övladınızın səhər yeməyinə diqqət edin, insulin asılılığı onların körpə bədənləri üçün böyük yükdür.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
7 dekabr
2024-cü il

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# “Uşaqlarımıza sosial mediadan faydalanmağı öyrətməliyik”



***“Müasir dövrdə sosial medianın uşaqların, xüsusilə yeniyetmələrin psixoloji vəziyyətinə təsiri danılmazdır. Buraya təkcə “YouTube”, “Instagram” və digər sosial şəbəkələr deyil, həm də uşaqların, yeniyetmələrin daxil olduğu, qeydiyyatdan keçdiyi və oynadığı müxtəlif oyunlar, yarışlar da daxildir. Bunun mənfi təsirlərindən biri də uşaqların getdikcə birtərəfli ünsiyyətə alışmasıdır. Belə ki, bu uşaqların psixikası ilə bərabər nitqinə də təsir edir.***

PSİXOLOQ

Hətta media ikinci tərbiyə növü kimi bir çox hallarda insanların, xüsusilə yeniyetmələrin və gənclərin həyatına təsir edir”. Bu sözləri SİA-ya açıqlamasında Amerika Beynəlxalq Nevroreqlyasiya və tədqiqatlar Dərnəyinin rəsmi Azərbaycan təmsilçisi, Psixologiya Elmi-Tədqiqat İnstitutunun elmi işçisi, Uzman-Klinik psixoloq Narınc Rüstəmova deyib. O bildirib ki, gənclər, yeniyetmələr çox zaman sosial mediada gördüyü, bəyəndiyi fenomenin həyatını izləyir zamanla onun kimi yaşamaq istəyir, onun stilini öz həyatına, yaşantısına tətbiq etməyə başlayır: “Bu da artıq yeniyetmənin ailəsi ilə arasında ziddiyətin yaranmasına gətirib çıxarır. Ailəsi onun bu istəyini aqressiya ilə qarşılayır ki, bu ailədaxili konfliklərə gətirib çıxarır. Belə hallar da çox zaman uşaqlarda ailəsi tərəfindən sevilməmək, diqqət görülmədiyi hissinin formalaşmasına gətirib çıxarır.

Valideynlər bu dönəmdə kompromisə gəlməyi bacarmalı, övladına qarşı aqressiv davranmamağa çalışmalı və fikirlərini onun başa düşəcəyi şəkildə izahetməli və ən əsası ortaq bir məxrəcə gəlməyi bacarmalıdır. Həmçinin bu dönəmlərində valideynlər övladını nəzarətdə saxlamalı, baxdığı filmlərə, izlədiyi sənət insanlarına, münasibət qurduğu insanlara diqqət etməlidirlər. Əksinə, valideynlər övladına sosial medianın faydalı tərəflərindən danışmalı və onunla birlikdə üçün öyrədici, maarifləndirici kontetlər axtarıb onlardadan yeni bilgilər öyrənməsinə, yararlanmasına kömək etməlidir. Bununla həm onlar birlikdə maraqlı zaman keçirə bilər, həm də faydalı məlumatlar əldə edərlər. Çünki, bilirik ki, sosial medianın zərərli tərəfləri olduğu kimi faydaları tərəflərdə var. Valideynlər bütün bunları nəzərə almalı və övladının çətin dönəmində ona dəstək olmalı, onların fikirlərinə bir şəxsiyyət kimi hörmət etdiklərini hiss etdirməli və bir yerdə ortaq məxrəcə gəlməlidirlər. Biz texnologiyanı yox edə və ya uşaqlarımıza ondan istifadəni tamamilə qadağa qoya bilmərik. Bu da düzgün bir yanaşma deyil. Biz uşaqlarımıza sosial media vasitəsilə faydalı məlumatlar əldə etməyi, ondan yaxşı mənada yararlana bilməyi öyrətməliyik.”

***Səbinə Hüseynli***

# Nağd əməliyyatlar sıradan çıxır?

***“Dünyada ümumi bir tendensiya var. Bu tendensiya ondan ibarətdir ki, nağd həyata keçirilən maliyyə əməliyyatları sıradan çıxsın, bütün əməliyyatlar debet kartla, yaxud hesabdan-hesaba köçürmə yolu ilə həyata keçirilsin”. Bu sözləri SİA-ya açıqlamasında Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı ekspert Akif Nəsirli deyib. Akif Nəsirli sözlərinə belə davam edib: “Bu həm də kölgə iqtisadiyyatının aradan qaldırılması hədəfini müəyyən edir. Yəni, pulların hərəkətinə nəzarətin mümkün olmasını deyirəm. Nəzarətdənkənar pul vəsaitlərinin dövriyyəsinin aradan qaldırılmasını hədəfləyir.***



İQTİSADÇI AÇIQLADI

Burada müxtəlif məsələlər var. Məsələn, vergidən yayınmanın aradan qaldırılması, qeydiyyatsız qeyri-qanuni dövriyyələrin dayandırılması, azaldılması və s. Dünyanın hədəfi budur. Azərbaycanda da bu tendensiya gedir. Amma çox təəssüflər olsun ki, müəyyən səbəblərdən ölkəmizdə bu tendensiya zəif inkişaf edir. Düzdür, hər müsbət inkişafın zərəri də var. Yəni, nəğdsiz əməliyyatlardan imtinanın müəyyən texnogen zərərləri ola biləcəyi ehtimal edilir. Amma hər halda bu gün dünyada inkişaf o istiqamətədir ki, nəğd əməliyyatlardan mümkün qədər azaldılsın və əməliyyatlar ya debet kartlarla, ya da hesabdan-hesaba yolu ilə həyata keçirilsin. Hərhalda bunun xeyri zərərindən daha çoxdur.

Bu gün biz dövlət olaraq bu məsələdən səmərə götürürük. Cəmiyyətin xeyrinə olaraq vergidən yayınmalar aradan qaldırılır, hökumət üçün bütün vəsait dövriyyəsi nəzarət olunacaq səviyyəyə çatır. Bu idarəetmənin səmərəliliyini yüksəkdir. Ona görə də bundan qorxmaq düzgün deyil”.

***Ayşən Vəli***

# Robert Levandovski daha 2 il "Barselona"da



İspaniyanın ”Barselona” klubu polşalı futbolçusu Robert Levandovskinin gələcəyi ilə bağlı qərar verib. Kataloniya təmsilçisinin rəhbərliyi 36 yaşlı hücumçunun çıxışından razı qalıb və növbəti mövsümdə də onun xidmətindən yararlanmaq niyyətindədir. La Liqa klubunun yeni hücumçu axtarışında olmadığı bildirilib. Bununla da polşalı oyunçunun müqaviləsi avtomatik olaraq 2026-cı ilin yayına qədər uzadılacaq.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700